

Milli azadlıqdan şirin nemət yoxdur!





# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

13 dekabr 2024-cü il, cümə
№ 230 (6816)
Qiyməti 60 qəpik


## Azərbaycan var olduqca...




# Ulu Öndərin ideyaları yaşayacaq!



Bax səh. 2

## YAP nümayəndələri Heydər Əliyevin xatirəsini yad ediblər

Bax səh. 2






### Hədəfimiz bəllidir...
## Qərbi azərbaycanlılar öz vətənlərində yaşamaq hüququna malikdirlər, bu hüquq ƏZƏLİDİR, TOXUNULMAZDIR, MÜTLƏQDİR!

Bax səh. 4

## Bayden administrasiyasının "son akkordları"

Bax səh. 3

## Roma Papası korsikalılar üçün "ümid işığı" olacaqmı?

Bax səh. 3

## Referendumun ünvanı niyə dəyişir?

İrəvan Aİ-yə sədrlik etdiyi halda, Aİ üzvü olmaq üçün ümumxalq səsverməsi keçirmək istəyir...

Bax səh. 6

## Bir gün qaldı...



Bax səh. 6

## 62 ildən sonra ...



Bax səh. 7

# Azərbaycan var olduqca... Ulu Öndərin ideyaları yaşayacaq!

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət ediblər






Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünyaşöhrətli siyasi xadim, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin vəfatından 21 il ötür.

AZƏRTAC xəbər verir ki, dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.

Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoydu.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsini ehtiramla andılar, məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.

***

Azərbaycanın çağdaş tarixində silinməz iz qoymuş Ulu Öndər Heydər Əliyev dahi şəxsiyyətlərdən biridir. Müstəqilliyimizin möhkəmləndirilməsi, milli şüurun inkişafı, iqtisadiyyatın tərəqqisi və ordu quruculuğu Ulu Öndərin hakimiyyətdə olduğu dövrün əsas nailiyyətləridir. Ötən əsrin 90-cı illərinin əvvəllərində xalqın tələbi ilə yenidən hakimiyyətə qayıdan Ümummilli Lider tərəfindən dövlətçiliyin əsasları qoyuldu və genişmiqyaslı islahatlara start verildi. Ulu Öndər Heydər Əliyevin Azərbaycana bəxş etdiklərini tarix boyunca ondan əvvəl heç kim bacarmayıb.

Xalqımız Dahi Şəxsiyyətin xilaskarlıq və quruculuq missiyasını unutmur və heç vaxt unutmayacaq. İyirminci əsrin 90-cı illərində çox çətin dönəm yaşamış Azərbaycan xalqı qurtuluşuna, bugünkü tərəqqisinə görə özünü Heydər Əliyevə borclu hesab edir. Hər il dekabrın 12-də və mayın 10-da Fəxri xiyabanda yaşanan izdiham Ulu Öndərin xatirəsinə böyük hörmətin əlamətidir. Xalqımız Heydər Əliyevin azərbaycançılıq ideologiyasına sadiqdir.

Ümummilli Lider Heydər Əliyevin ən böyük arzusu Qarabağın düşmən tapdağından azad edilməsi, Azərbaycanı bütöv görmək idi. Dahi şəxsiyyətin bu arzusunu və vəsiyyətini onun layiqli davamçısı, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı, qüdrətli sərkərdə İlham Əliyev reallığa çevirdi, ölkəmizin ərazi bütövlüyü və suverenliyi hərbi-siyasi yolla bərpa olundu. İndi üçrəngli Dövlət Bayrağımız bütöv Azərbaycanın hər bir guşəsində qürurla dalğalanır. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur hazırda yenidən qurulur, ərazilər minalardan təmizlənir, sürətlə genişmiqyaslı bərpa və yenidənqurma işləri aparılır.

Görkəmli dövlət xadimi Heydər Əliyev cismən aramızda olmasa da, onun parlaq ideyaları Azərbaycanın inkişaf yolunu işıqlandırır. Ulu Öndərin müəyyənləşdirdiyi inkişaf yolu əzmlə davam etdirilir və ölkəmizi inamla irəli aparır. Bu gün vətənimizin milli maraqlarını qətiyyətlə müdafiə edən Prezident İlham Əliyev uzaqgörən və titanik fəaliyyəti ilə Azərbaycanı dünya miqyasında, o cümlədən Türk dünyasında və bölgədə qüdrətli dövlətə, söz və nüfuz sahibinə, etibarlı tərəfdaşa çevirib.






Əminliklə söyləmək olar ki, Azərbaycan var olduqca Ulu Öndər Heydər Əliyevin ideyaları yaşayacaq və daha da inkişaf etdiriləcək.

# Yeni Azərbaycan Partiyasının nümayəndələri Ulu Öndər Heydər Əliyevin xatirəsini yad ediblər

**Dekabrın 12-də müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin vəfatının 21-ci ildönümü ilə əlaqədar Yeni Azərbaycan Partiyasının nümayəndələri Fəxri xiyabanda Ulu Öndərin xatirəsini yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.**

**Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.**









# Bayden adminstrasiyasının “son akkordları”

## Blinkenin qərəzi və “paslanmış tərəzi”...
## Dövlət katibi “insan hüquqları” silahını son dəfə “işə saldı”...

Azərbaycanın sabit və davamlı inkişafı, dövlət maraqlarına söykənən daxili və xarici siyasət kursu yürütməsi, eləcə də demokratik prinsiplərə sadiqlik nümayiş etdirməsi ölkəmizi yerləşdiyi regionun siyasi-iqtisadi aktoru kimi önə çıxarır. Bölgədə yeni siyasi reallıqlar formalaşdırmaqla yanaşı, qlobal təşəbbüskarlığı, xüsusilə “yaşıl” gələcək uğrunda yeni strateji yol xəritəsi təqdim etməsi və bu təkliflərin bütün dünya tərəfindən dəstəklənməsi Azərbaycanın yüksək dinamizmə malik inkişaf perspektivindən xəbər verir. Eyni zamanda, davamlı olaraq həyata keçirilən islahatlar, ölkə qanunvericiliyinin yeni, müasir standartlar əsasında formalaşdırılması, insan hüquqlarının, söz azadlığının qorunması yönündə atılan addımlar, azad, şəffaf və demokratik seçkilərin keçirilməsi inkişafımızın əsas təməl prinsiplərinə çevrilib.

Təəssüf ki, bu faktlar bəzən bir sıra xarici dairələr tərəfindən məqsədli şəkildə təhrif olunur və ölkəmizə qarşı açıq ikili standartlar tətbiq edilir. Vurğulandığı kimi, Azərbaycanın yalnız milli mənafeni üstün tutan siyasət yürütməsindən narahat olan bu dairələr korporativ maraqlarının əsirinə çevrilir, region üçün qurduqları planların “işləməməsi”nin acığını şər, böhtan və qərəzli çıxmağa çalışırlar.



### Blinkenin “son bəyanatı”...

Konkret olaraq Cənubi Qafqaza münasibətdə ikili standartdan çıxış edən, yanaşmalarında beynəlxalq hüququ deyil, korporativ maraqları əsas götürən Bayden administrasiyası yenə də öz destruktiv fəaliyyətindən qalmır. Ciddi-cəhdlə bölgəni müstəqil inkişaf xəttindən kənarlaşdırmaq və Ermənistanın əli ilə özünün təsir mexanizmlərini formalaşdırmaq istəyən Bayden komandasının “oxu daşa dəyən” kimi başqa “hava çalmağa” başlayıb. ABŞ-da keçirilən prezident seçkilərindəki məğlubiyyətdən sonra qərəzli yanaşmalarını daha da intensivləşdirən administrasiya sonuncu “hakimiyyət ayı”na qədəm qoyduqları halda, hələ də bu kimi qeyri-adekvat addımlardan çəkilmirlər. Məsələn, dövlət katibi Antoni Blinkenin yaydığı “bəyanat” bütün “ştrixləri ilə” yalana və qərəzə köklənib. Blinkenin “bəyanatı” sanki artıq heç kəs tərəfindən ciddi qəbul edilməyən ABŞ-ın hər il dünya ölkələrində “insan haqlarına” dair hesabatlarını xatırladır - çünki Blinkenin önə çıxarmağa çalışdığı şəxslərin və “hüquqlarının pozulduğunu” iddia etdiyi şəxslərin kimliyi heç kimə sirr deyil. ABŞ-ın niyə məhz həmin şəxslər üzərində “fokuslanmağı” da əbəs deyil. Çünki o şəxslər ABŞ-ın diversantları qismində bu ölkənin lokal maraqlarının təmin edilməsi uğrunda “çalışırlar”.

### Azərbaycanda insan hüquq və azadlıqları qorunur




Bu gün Azərbaycanda baş verən tərəqqi proseslərinin, novatorluğun, islahatların lokomotivi qismində çıxış edən hüquqi dövlət anlayışı bütövlükdə, sabit inkişafın əsas təməl prinsipi sayılır. Yerləşdiyi Cənubi Qafqaz regionunun lider dövlətinə çevrilən Azərbaycanda hüquqi dövlət quruculuğu prosesinin uğurları saysızdır. Ölkəmiz insan hüquqlarının qorunması prinsiplərini özündə ehtiva edən müqavilələri və konvensiyaları dəstəkləyib. BMT Baş Məclisinin 1948-ci il qətnaməsi ilə qəbul olunan “İnsan hüquqları haqqında” Ümumi Bəyannaməni dəstəkləyən Azərbaycan bu istiqamətdə götürdüyü bütün öhdəlikləri yerinə yetirib. O cümlədən, Azərbaycan onlarla beynəlxalq konvensiyanı dəstəkləyərək nəinki öz sərhədləri daxilində, bütün dünyada insan hüquqlarının qorunmasına töhfə verir. Ölkəmiz hətta qlobal terrorizmlə mübarizədə ön sıralarda çıxış etməklə insan hüquqlarının qorunması istiqamətində hansı cəbhədə dayandığını əyani şəkildə göstərib.

Beləliklə, ölkəmiz də müstəqillik qazandığı dövrdən indiyə kimi insan hüquq və azadlıqlarının təmin olunması, vətəndaş cəmiyyətinin formalaşdırılması və daha da təkmilləşdirilməsi istiqamətində çox böyük addımlar atıb. Nəticə etibarı ilə, davamlı hal almış bu proseslər demokratikləşmə prosesinin də operativ və effektiv səciyyə almasını şərtləndirib.

### ABŞ güzgüyə baxsa...

Bayden adminstrasiyasının xarici siyasət idarəsinin rəhbəri bu reallığı yaxşı görür və anlayır. Dünyanın əksər regionlarında törətdiklərini, pozduqları milyonlarla insan hüquq və azadlıqlarını bir dəfə də olsun dilə gətirməyən Blinkenin rahat şəkildə Azərbaycana böhtan atması “öz gözündə tiri görməməkdir”. ABŞ əgər özünə bütün dünyada insan hüquq və azadlıqlarını “təftiş etmək” bir vəzifə “yaradıbsa”, ilk olaraq bu işə elə özündən başlamalıdır. Nə üçün Dövlət Departamenti ölkəsinin daxilində insan haqları sahəsində vəziyyətə dair könüllü və açıq şəkildə etiraflar etmir? Bayden adminstrasiyasının bütün dünyada yaydığı rasizmin, islamafobiyanın, miqrantların hüquqlarının pozulmasının, həbsxanalarda dözülməz şəraitin və digər məsələlərin üstündən niyə sükutla keçilir? ABŞ-da hələ də irqi ayrı-seçkiliyin hökm sürdüyü heç kimə sirr deyil - hər il bu səbəblə çox sayda insan həyatını itirir. Eyni zamanda, özünü “dünya jandarmı” kimi təqdim edən Bayden adminstrasiyasının və konkret olaraq Blinkenin Qəzza hadisələri barədə susması insan haqqlarına zidd deyilmi - İraqda, Əfqanıstanda ABŞ ordusunun cinayətləri, törətdiyi qanunsuzluqlar böyük anlamda insan hüquq və azadlıqlarının kobud pozulması deyilmi?

Beləliklə, dövlət katibinin bu fikirlərinin qeyri-ciddi obrazı bütün çalarları ilə üzə çıxan Bayden adminstrasiyasının qərəzindən doğduğu birmənalıdır...



**Antoni Blinkenin yaydığı “bəyanat” bütün “ştrixləri ilə” yalana və qərəzə köklənib. Blinkenin “bəyanatı” sanki artıq heç kəs tərəfindən ciddi qəbul edilməyən ABŞ-ın hər il dünya ölkələrində “insan haqlarına” dair hesabatlarını xatırladır - çünki Blinkenin önə çıxarmağa çalışdığı şəxslərin və “hüquqlarının pozulduğunu” iddia etdiyi şəxslərin kimliyi heç kimə sirr deyil. ABŞ-ın niyə məhz həmin şəxslər üzərində “fokuslanmağı” da əbəs deyil. Çünki o şəxslər ABŞ-ın diversantları qismində bu ölkənin lokal maraqlarının təmin edilməsi uğrunda “çalışırlar”**

### XİN və QAİ etiraz etdi...

Yeri gəlmişkən, Azərbaycanın Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə ABŞ Dövlət katibi Antoni Blinkenin fikirlərini şərh edib və deyib ki, ölkəmizdə insan hüquqları və azadlıqlarının qorunması ilə bağlı mövcud vəziyyəti təhrif edən, Azərbaycanın məhkəmə-hüquq prosesinə müdaxilə məqsədli qərəzli bəyanatını qətiyyətlə pisləyir və rədd edirik. “Təəssüf ki, son 4 il ərzində Dövlət katibi Blinkenin rəhbərlik etdiyi ABŞ Dövlət Departamentinin Azərbaycanın daxili işlərinə müdaxilə ilə məşğul olması səbəbindən, sözügedən dövr bir çox dönəmlərdə dostluq və əməkdaşlıq ilə yadda qalan Azərbaycan-ABŞ münasibətləri üçün itirilmiş illər kimi qiymətləndirilir. Antoni Blinken tərəfindən ölkəmizdə insan hüquqları ilə bağlı mövcud vəziyyətə münasibətdə ikili standartlar mövqeyindən çıxış edilməsinin ABŞ-ın bütövlükdə, Cənubi Qafqaz siyasətini iflic vəziyyətinə gətirməsi hər kəsə yaxşı məlumdur. Ümidvarıq ki, yeni ABŞ administrasiyası dövründə Azərbaycan və ABŞ arasında qarşılıqlı dostluq və tərəfdaşlıq münasibətləri yenidən bərpa olunacaq”, -deyə qeyd olunub.

Qərbi Azərbaycan İcması da ABŞ Dövlət katibinin və digər rəsmilərinin Azərbaycanın daxili işlərinə kobud müdaxilə cəhdlərini kəskin şəkildə pisləyib. Bu barədə Qərbi Azərbaycan İcmasının yaydığı bəyanatda qeyd edilib. “Təəssüflə vurğulamaq istərdik ki, biz bu illərdə ABŞ-ın Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsini, etnik təmizləmə siyasəti həyata keçirməsini, biz Qərbi azərbaycanlıları deportasiya etməsini pislədiyini görmədik. ABŞ rəsmiləri torpaqları işğal edilmiş Azərbaycanın, yüz minlərlə məcburi köçkünün, minlərlə itkin ailəsinin deyil, işğalçı Ermənistanın, Azərbaycan cəmiyyətində heç bir nüfuzu olmayan, rüsvay olmuş bir qrup marginal elementin yanında yer aldı. Vətən müharibəsindən sonra bütün bunların, xüsusilə ölkələrin ərazi bütövlüyü və suverenliyinə münasibətdə ABŞ-ın fərqli yanaşmasının bir daha şahidi olduq. ABŞ-ın dinc yolla öz dədə-baba yurdlarına qayıdış xəttini seçən Qərbi Azərbaycan İcmasının elə həmin Antoni Blinkenə ünvanladığı məktuba heç bir reaksiya vermədiyini, lakin Azərbaycan xalqına qarşı etnik təmizləmə siyasətinin həyata keçirilməsində iştirak edən və bu günün özündə də Ermənistanda Azərbaycanın suverenliyini təhdid edən separatçılara qucaq açdığını, viza verdiyini, ABŞ-ın müxtəlif təsisatlarında çıxış etmək imkanı yaratdığını gördük. Özünü dini azadlıqlara hörmət edən ölkə kimi qələmə verən, “mötəbər” hesabatlar hazırlayaraq ölkələri müxtəlif uydurma siyahılara daxil edən, Qarabağda “erməni irsi”nin vəziyyəti ilə bağlı narahatçılığını ifadə edən ABŞ-ın Azərbaycan xalqının Ermənistan ərazisində zəngin mədəni irsinin dağıdılmasını, təhrif edilməsini pislədiyini eşitmədik. Bütün bunlara görə də, ABŞ Azərbaycan cəmiyyətində olan-qalan nüfuzunu da itirdi”, - deyə vurğulanan bəyanatda o da bildirilir ki, ABŞ “insan hüquqları” mövzusunu, yalan xəbər mediasını, “müstəqil” QHT-ləri Azərbaycana qarşı silah kimi istifadə etməkdənsə, qoy, özü ən əsas beynəlxalq insan hüquqları konvensiyalarına qoşulsun, müxtəlif beynəlxalq təşkilatların çoxsaylı hesabatlarında yer almış polis tərəfindən həddindən artıq gücün tətbiq edilməsi, hüquq-mühafizə orqanlarının irqi əsasda məlumatlar toplaması (racial profiling), strukturlaşdırılmış irqçilik kimi praktikalara son qoysun, silah zorakılığı problemini həll etsin, məhbuslara verilən işgəncə hallarını və digər qanunsuz əməlləri araşdırsın”.

*P.İSMAYILOV*

# Roma Papası korsikalılar üçün “ümid işığı” olacaqmı?

## Papa Fransisk adaya səfər edəcək

Azərbaycan müstəmləkəçiliyə və neokolonializmə qarşı mübarizə aparan xalqları dəstəkləyir. Dövlətimiz bu mövqeyini bütün beynəlxalq platformalarda bəyan edib. Bakı Təşəbbüs Qrupunun (BTQ) yaradılması da bu məqsədə xidmət edir. Belə ki, Bakı Təşəbbüs Qrupu Qoşulmama Hərəkatının ötən il iyulun 5-6-da Bakıda keçirilmiş nazirlər toplantısı çərçivəsində baş tutan tədbirin nəticəsi olaraq yaradılıb.

### BTQ səfər ərəfəsində Roma Papasına müraciət edib

Yarandığı vaxtdan Bakı Təşəbbüs Qrupu ölkəmizdə və xaricdə, o cümlədən BMT müstəvisində həmin xalqların hüquqları ilə bağlı çoxlu sayda beynəlxalq konfrans təşkil edib. BTQ Korsika xalqının da hüquqlarının qorunması üçün müxtəlif tədbirlər keçirir. Yeri gəlmişkən, bugünlərdə Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov Roma Papası Fransiskə Korsikanın dekolonizasiyası prosesinə dəstək müraciəti ünvanlayıb. A.Abbasov əvvəlcə təşkilatın məqsədi barədə məlumat verib və qeyd edib ki, əsas məqsəd dekolonizasiya proseslərini dəstəkləmək, müstəmləkəçilik və müstəmləkəçiliyin yeni təzahürlərinə qarşı mübarizə aparmaqdır. Qoşulmama Hərəkatının Nizamnaməsində də təsisçilər tərəfindən qeyd edilir: “Xalqların xarici əsarətə, hökmranlığa və istismara məruz qalması əsas insan hüquqlarının pozulmasıdır, BMT Nizamnaməsinə ziddir və tez bir zamanda aradan qaldırılmalı olan bir şərdir”.

BTQ hələ də müstəmləkəçilikdən əziyyət çəkən ölkə və ərazilərdən olan müstəqillik tərəfdarlarının siyasi partiya və hərəkatlarından nümayəndələri bir araya gətirən beynəlxalq platformadır. Lakin bəşər tarixinə damğasını vurmuş saysız-hesabsız fəlakətlər arasında müstəmləkəçiliyin XXI əsrdə də dini, etnik, coğrafi və mədəni sərhədləri aşaraq davam etdiyini müşahidə etmək dərin məyusluq doğurur. BTQ-nin Qoşulmama Hərəkatı çərçivəsində yaradılması təsadüfi hadisə deyil. Əksinə, bu, 2019-2023-cü illərdə Qoşulmama Hərəkatına sədrliyi dövründə və hazırda Qoşulmama Hərəkatı “Troyka”sının üzvü olaraq Azərbaycanın fəal iştirak və töhfəsinin məntiqi davamıdır.




**Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov Roma Papası Fransiskə Korsikanın dekolonizasiyası prosesinə dəstək müraciəti ünvanlayıb**

### COP29 çərçivəsində müstəmləkəçiliyə qarşı tədbirlər keçirilib

A.Abbasov məktubunda onu da vurğulayıb ki, beynəlxalq hüquqa əsaslanan fəaliyyəti nəticəsində BTQ BMT qərargahları daxil olmaqla, dünyanın müxtəlif ölkələrində təxminən 20-yə yaxın beynəlxalq konfrans təşkil edib. Noyabrın 11-dən 22-dək Bakıda keçirilmiş BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində BTQ öz fəallığı ilə xüsusi seçilib. COP29 çərçivəsində müasir dünyada müstəmləkəçilik və neomüstəmləkəçilik təcrübələrini qınayan təxminən 10 tədbir təşkil edilib. Tədbirlərdə Korsika, Kanaki (Yeni Kaledoniya), Martinika, Fransız Qvianası, Qvadelupa, Boneyr, Sent-Martin və Mayotdan olan nümayəndələrin iştirakı böyük töhfə verib.

A.Abbasov məktubunda Roma Papasının dekolonizasiya prosesinə göstərdiyi diqqətin beynəlxalq ictimaiyyətə məlum olduğunu deyərək martın 30-31-də Vatikan şəhərində keçirilmiş “Müstəmləkəçilik, dekolonizasiya və yeni müstəmləkəçilik: Sosial ədalət və ümumi rifah perspektivi” adlı forumda onun söylədiyi bu sözlərin çox təsirli olduğunu diqqətə çatdırıb: “Xalqların güc vasitəsilə və ya mədəni və siyasi nüfuzla əsarət altına alınması və istismarı cinayətdir”.



**Bu yaxınlarda Korsika xalqı hətta Korsika Assambleyasına adanın müstəmləkəsizləşdiriləcək ölkələr siyahısına daxil olunmasını tələb edən müraciət də təqdim edib. Bundan başqa, noyabrın 19-da Marsel İnzibati Apelyasiya Məhkəməsinin qadağa qərarından sonra Korsika yenidən öz dilində danışmaq hüququndan məhrum olunub**

### Roma Papasından xahiş edilib

“Zati-müqəddəsləri, dekabrın 15-də Korsikaya planlaşdırdığınız səfəriniz barədə bu yaxınlarda xəbər tutdum. Kardinal Fransua-Xavier Bustillonun dediyi kimi, “Korsika katolik dini ənənəsini qoruyub saxlamış bir torpaqdır”, bu xalq müasir idarəetmə dinamikaları qarşısında öz unikal kimliyini, mədəniyyətini və dəyərlərini qorumaq üçün uzun müddətdir mübarizə aparmaqda davam edir. Korsikanın tarixi onun dilində, adət-ənənələrində və fərqli irsində təcəssüm olunan mədəni zənginliklərlə doludur. Lakin xarici hökmranlıq çox vaxt xalqın öz milli kimliyini və suverenliyini qoruyub saxlamaq səylərinə maneə törədir. Bu yaxınlarda Korsika xalqı hətta Korsika Assambleyasına adanın müstəmləkəsizləşdiriləcək ölkələr siyahısına daxil olunmasını tələb edən müraciət də təqdim edib. Bundan başqa, noyabrın 19-da Marsel İnzibati Apelyasiya Məhkəməsinin qadağa qərarından sonra Korsika yenidən öz dilində danışmaq hüququndan məhrum olunub”,-deyən BTQ-nin icraçı direktorunun sözlərinə görə, dekolonizasiya təkcə siyasi proses deyil, bu, bütün xalqlar üçün Allahın bəxş etdiyi ədalətin bərpasına doğru əxlaqi və mənəvi bir yoldur. A.Abbasov Roma Papasından adaya səfəri zamanı Korsikadakı vəziyyəti nəzərə almanığı xahiş edib və inamını ifadə edib ki, onun varlığı təkcə Korsika xalqına deyil, həm də müstəmləkəçilikdən əziyyət çəkən bütün xalqlara ümid işığı olacaq.

*N.BAYRAMLI*

# Hədəfimiz bəllidir...
# Qərbi azərbaycanlılar öz vətənlərində yaşamaq hüququna malikdirlər, bu hüquq ƏZƏLİDİR, TOXUNULMAZDIR, MÜTLƏQDİR!

Qərbi azərbaycanlıların doğma yurdlarına qayıdışının təmin olunması onların beynəlxalq hüquq çərçivəsində müəyyənləşmiş fundamental haqlarından biridir. Bu məqsəd üçün bütün imkanlardan, o cümlədən beynəlxalq platformalardan istifadə olunur. Bu istiqamətdə Qərbi Azərbaycan İcması müvafiq beynəlxalq təşkilatlara müraciətlər edir. Eləcə də müxtəlif yerli və beynəlxalq konfranslar keçirilir.

## Ermənistan niyə narahatdır?

Məlumdur ki, Azərbaycan xalqı ötən iki əsr ərzində silahlı münaqişələr, işğal, etnik təmizləmə, zorla köçürülmə və soyqırımılarından böyük əziyyət çəkib. Azərbaycanlıların vaxtilə mütləq əksəriyyət təşkil etdiyi indiki Ermənistan ərazisindən tamamilə qovulması 1991-ci ildə başa çatıb. Aparılmış etnik təmizləmə nəticəsində indi həmin ərazidə yalnız ermənilər yaşayırlar. Azərbaycanlılara qarşı törədilmiş etnik təmizləmə əksər hallarda dövlət orqanlarının sistemli fəaliyyəti ilə zorakılıq, soyqırımı, kütləvi qətliam və insanlıq əleyhinə digər cinayətlər və insan hüquqlarının kobud pozulması yolu ilə həyata keçirilib. Bu proses 1905-1906, 1918-1921, 1948-1953 və 1987-1991-ci illərdə xüsusilə şiddətli və amansız olub. Ermənistan adlanan ərazidə azərbaycanlılara məxsus olan tarixi və mədəni irs, o cümlədən məscidlər və qəbiristanlıqlar kütləvi şəkildə dağıdılıb, yer adları dəyişdirilib, azərbaycanlılara qarşı sistematik xarakterli irqi ayrı-seçkilik həyata keçirilib.

Bu gün məsələyə beynəlxalq ictimaiyyətin münasibət bildirməsi çox önəmlidir. Ermənistanda isə bu mövzu “dərin narahatlıqla” izlənilir. Çünki artıq Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması kontekstində Qərbi azərbaycanlıların doğma yurdlarına qayıdışı beynəlxalq platformalarda müzakirə predmetinə çevrilib.

Azərbaycanlılara qarşı etnik təmizləmədə və digər cinayətlərdə iştirak etmiş şəxslər və onların əməlləri Ermənistanda dövlət səviyyəsində mükafatlandırılıb və təltif olunublar. Bu haqsızlıq Ermənistanın hakim dairələrində cəzasızlıq hissi yaradıb və onları Azərbaycanın beynəlxalq aləmdə tanınmış ərazilərinə qarşı iddialara, güc tətbiqinə, hərbi işğala, əlavə kütləvi miqyaslı etnik təmizləməyə və insanlıq əleyhinə digər cinayətlərə həvəsləndirib. Azərbaycanın 44 günlük müharibədə öz ərazilərini işğaldan azad etməsi, müharibənin qələbə ilə başa çatması ədalətin bərpa olunması istiqamətində mühüm addım olub və iki ölkə arasında sülh imkanlarını artırıb. Digər tərəfdən, indiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların öz evlərinə qayıda bilməməsi, bu ölkədə monoetnik dövlətçilik, etnik təmizləmə və sistematik irqi ayrı-seçkilik vəziyyətinin davam etməsi böyük ədalətsizlikdir və bu, davamlı sülhün bərqərar olunmasına əngəl törədir.

## Xalqımıza məxsus irs məhv edilir

Ermənistan rəhbərliyinin azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə öz doğma torpaqlarına geri qayıtması hüququnu təkzib etməsi, yüz minlərlə azərbaycanlının daxil olduğu Qərbi Azərbaycan İcmasının Ermənistan rəhbərliyini bu istiqamətdə dialoqa qarşı çıxması, bu hüquqların tələbinin “ərazi iddiası” kimi təqdim edilməsi Ermənistanın “insan hüquqlarına” heç bir dəyər verməyən və “etnik





təmizləmə əsasında monoetnik dövlət titulunu” qorumaq üzrə məkrli siyasətinin bir göstəricisidir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Ermənistan Qərbi Azərbaycan İcmasının fəaliyyətini qəsdən öz ərazi bütövlüyünə təhdid kimi təqdim etməyə çalışır: “Lakin İcmanın məqsədi Qərbi Azərbaycandan didərgin salınmış soydaşlarımızın dinc və təhlükəsiz şəraitdə, ləyaqətlə öz dədə-baba yurdlarına qayıdışının təmin olunmasından ibarətdir. Bu, sırf insan haqları məsələsidir. Ermənistanın İcmanın fəaliyyətini təhdid kimi qələmə verməsi məsələnin əsl mahiyyətini təhrif etmək və beynəlxalq hüquqa əsaslanan qayıdış hüququnu inkar etmək cəhdidir”.

Ermənistandan azərbaycanlıların qovulması nəinki tarixi faktdır, eynilə, həm sovet Ermənistanı dövründə, həm də 1990-cı illərdən bəri minlərlə Azərbaycan toponimlərini məqsədyönlü şəkildə dəyişən, tarixi torpaqlarımızdan xalqımızın irsini məhv edən, tarixi abidələri dağıdan, bununla Azərbaycanın tarixi torpaqlarını erməniləşdirməyə cəhd göstərən Ermənistanın Azərbaycanın Qərbi Azərbaycan İcması ifadəsindən istifadə etməsini beynəlxalq hüquq pozuntusu kimi təqdim etməsi riyakarlıqdır.

Görünən odur ki, Qərbi azərbaycanlıların qayıdışı məsələsinin beynəlxalq müstəviyə çıxarılması Ermənistanı çox ciddi şəkildə narahat edir. Əgər belə olmasaydı, bu ölkənin rəsmilərində, həm də erməni cəmiyyətinin müxtəlif nümayəndələrində bu mövzu təşviş yaratmazdı. Amma onların nə deməsindən asılı olmayaraq, Qərbi azərbaycanlıların tarixi torpaqlarına qayıdışı mütləq gerçəkləşməlidir. Təsadüfi deyil ki, Qərbi Azərbaycan İcması BMT Baş katibinə, Avropa İttifaqı Şurasının Prezidentinə, UNESCO-ya və digər beynəlxalq təşkilatlara müraciətlər edib. Bu müraciətlərin bir neçəsi BMT-nin rəsmi sənədi kimi yayılıb. Bütün bunlar qayıdış istiqamətində sistemli tədbirlər görüldüyünü təsdiq edir. Ermənistanın Qərbi Azərbaycan İcmasından qorxmasının əsas səbəbi də budur.

**Ermənistanın BMT-nin Nizamnaməsi daxil olmaqla müvafiq beynəlxalq hüquqi sənədlərə qoşulmuş olması bu ölkənin üzərinə onun ərazisindən qovulmuş azərbaycanlıların sülh yolu ilə öz evlərinə təhlükəsiz və ləyaqətlə qayıtmasına şərait yaratmaq daxil olmaqla onların hüquqlarının bərpası və qorunması sahəsində konkret öhdəliklər qoyur**

## Beynəlxalq sənədlər qayıdış hüququnu tanıyır

Qərbi Azərbaycan İcması tərəfindən indiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə, sülh yolu ilə geriyə qayıtmasının təmin edilməsi barədə konsepsiya - Qayıdış Konsepsiyasını qəbul edilib. Konsepsiyada qayıdışla bağlı əsas məqsəd və prinsiplər müəyyən edilib. Konsepsiyada əks olunduğu kimi Qərbi azərbaycanlılar “Ermənistan Respublikası” adlanan ölkədən zorla qovulduqları üçün onun konstitusion çərçivəsinin və milli və hüquqi xarakterinin formalaşması prosesində iştirak imkanından məhrum ediliblər. Təəssüf ki, belə bir işğalçı, azərbaycanlıları öz yurdlarından zorla qovan dövlət BMT-nin üzvüdür. Ermənistanın BMT-nin Nizamnaməsi daxil olmaqla müvafiq beynəlxalq hüquqi sənədlərə qoşulmuş olması bu ölkənin üzərinə onun ərazisindən qovulmuş azərbaycanlıların sülh yolu ilə öz evlərinə təhlükəsiz və ləyaqətlə qayıtmasına şərait yaratmaq daxil olmaqla onların hüquqlarının bərpası və qorunması sahəsində konkret öhdəliklər qoyur.

Konsepsiyada əksini tapan digər bir məqam isə məhz qayıdışla bağlı beynəlxalq hüquqi çərçivə və zəmanətdir. Sənəddə indiki Ermənistan ərazisindən azərbaycanlıların qovulması məsələsini presedentsiz ədalətsizlik kimi beynəlxalq ictimaiyyətin gündəliyinə gətirmək, bu vəziyyətin davam etməsinin beynəlxalq sülh və təhlükəsizliyə təhdid kimi qəbul etdirməyə nail olmaq və davamlı sülh və ədalətin bərqərar olması üçün azərbaycanlıların geriyə qayıtma hüququnu təmin edən qərar və razılaşmaların əldə edilməsi ilk vəzifədir. Bu məqsədlə, İcma Qərbi Azərbaycandan qovulmuş azərbaycanlıların öz vətənlərinə qayıtmasına şərait yaratmağın Ermənistanın öhdəliyi kimi təsbit olunmasına çalışır. İnsan Hüquqları Ümumi Bəyannaməsində, Mülki və siyasi Hüquqlar Haqqında Beynəlxalq Pakt, BMT-nin Qaçqınların Statusuna dair 1951-ci il Konvensiyası və 1967-ci il Protokolu və digər sənədlərdə həmin hüquq öz əksini tapıb.

Qərbi Azərbaycan İcmasının İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Ülviyyə Zülfiqar da mediaya açıqlamasında deyib ki, müvafiq beynəlxalq konvensiyalarda öz əksini tapan konkret müddəalar Ermənistandan zorla deportasiya olunmuş Qərbi azərbaycanlıların öz yurdlarına qayıdış hüququnu tanıyır: “Birləşmiş Millətlər Təşkilatının insan hüquqları və beynəlxalq hüquq sahəsində qəbul etdiyi mühüm prinsiplərdən biri olan qayıdış hüququ Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 13-cü maddəsinin 2-ci bəndində qeyd olunur. Bu bənddə açıq mətnlə deyilir: “Hər kəsin öz ölkəsi daxilində sərbəst hərəkət etmək və yaşayış yeri seçmək hüququ var” və “hər kəsin öz ölkəsinə qayıtmaq hüququ var”.

Ermənistan azərbaycanlı icmasının bərabər hüquqlarını təmin etməli, onların ana dillərində təhsil almasına, qanunvericilik, icra və məhkəmə orqanlarında Azərbaycan dilindən istifadəsinə imkan yaratmalı və azərbaycanlıların hüquqlarının qorunmasını tam təmin etməlidir. Bütün bunların reallaşması üçün müvafiq beynəlxalq qurumların hüquqi məsləhət, monitorinq və nəzarət mexanizmi çərçivəsində İcma ilə konstruktiv dialoqa başlanmalıdır. İstənilən halda, Qərbi Azərbaycandan qovulmuş azərbaycanlılar öz vətənlərində yaşamaq hüququna malikdirlər, bu hüquq əzəlidir, toxunulmazdır, mütləqdir və həlledici faktordur.

*Nardar BAYRAMLI*

**Birləşmiş Millətlər Təşkilatının insan hüquqları və beynəlxalq hüquq sahəsində qəbul etdiyi mühüm prinsiplərdən biri olan qayıdış hüququ Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 13-cü maddəsinin 2-ci bəndində qeyd olunur. Bu bənddə açıq mətnlə deyilir: “Hər kəsin öz ölkəsi daxilində sərbəst hərəkət etmək və yaşayış yeri seçmək hüququ var” və “hər kəsin öz ölkəsinə qayıtmaq hüququ var”**

# Dünyəvilik və dinlərin bərabərliyi prinsipləri

*Yeganə BAYRAMOVA*

Azərbaycanda müxtəlif dini konfessiyalar arasında qarşılıqlı hörmət, onların dinc və yanaşı şəkildə yaşaması ölkəmizdə dini tolerantlıq mühitinin səciyyəvi əlamətidir. Bu vəziyyət etnik və dini mənşəyindən asılı olmayaraq, bütün azərbaycanlıların qürur mənbəyidir. Məlumdur ki, Azərbaycanın Şərqlə Qərbin kəsişməsində yerləşən geostrateji mövqeyi, müxtəlif mədəniyyətlər və sivilizasiyalar arasında canlı körpü rolunu oynamağa imkan verir.

Bakı müxtəlif mədəniyyətlər və dinlər arasında dialoqun təşviqi və dərinləşdirilməsinə yönəlmiş tədbirlərin, sammitlərin, qlobal forumların və konfransların keçirildiyi əsas beynəlxalq məkan kimi tanınır. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin də bu istiqamətdə gördüyü işlər, müəyyən tədbirlərin keçirilməsi, müzakirələrin aparılması təqdirəlayiqdir.

Bu günlərdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov Quba şəhərində yerləşən Altı günbəz və Giləki sinaqoqlarını ziyarət edib. Bu barədə Dövlət Komitəsindən məlumat verilib.

Sədr ibadət yerlərində fəaliyyət göstərən din xadimləri ilə görüş zamanı bildirib ki, dini müxtəliflik baxımından zəngin Azərbaycanda milli, irqi və dini zəmində heç vaxt ayrı-seçkilik faktı qeydə alınmayıb: “Azərbaycan ərazisində məskunlaşan bütün xalqlar arasında qarşılıqlı etimad mühiti formalaşıb. Bu da multikultural mühitin mövcudluğu, dini dözümlülüyün Azərbaycan xalqının həyat tərzi olduğunu göstərir”.

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi**

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi” istiqaməti üzrə hazırlanmışdır**

## Konfessiyaların fəaliyyətinə maddi və mənəvi dəstək...

Dövlət-din münasibətlərinin davamlı olaraq inkişaf etdirilməsi istiqamətində görülən işlərdən də bəhs edən R.Məmmədov qeyd edib ki, cəmiyyətin mənəvi zənginləşməsinə xidmət edən müxtəliflik ənənələrinin təbliği məqsədilə dövlət tərəfindən konfessiyaların fəaliyyətinə maddi və mənəvi dəstək göstərilir: “Heç bir fərq qoyulmadan məscid, kilsə, sinaqoqlar və digər ibadət evləri təmir və bərpa edilir, yeniləri tikilərək istifadəyə verilir”.

Din xadimləri ibadət yerlərinin tarixi barədə məlumat veriblər. Dövlət Komitəsinin sədri eyni zamanda Qırmızı qəsəbə Dağ yəhudiləri muzeyinin fəaliyyəti ilə tanış olub.

Qeyd edək ki, Dağ yəhudilərinin tarixi irsini və ənələrini özündə əks etdirən milli geyimlər, zərgərlik məmulatları, əlyazmalar, kitablar, antik əşyalar və digər dəyərli eksponatların sərgiləndiyi muzey qədim sinaqoq binasında yerləşir.



## Dövlət-din münasibətləri möhkəm təməllərə əsaslanıb

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov dekabrın 6-da isə Amerika Dini Azadlıq Mərkəzinin rəhbəri, eyni zamanda, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin ABŞ-dakı təsisçi icraçı direktoru Janna Skot ilə görüşüb. Dövlət Komitəsindən bildirilib ki, Prezident İlham Əliyevin tolerantlıq ənənələrinin və multikultural dəyərlərin inkişafına xüsusi diqqət göstərdiyini vurğulayan Komitə sədri ölkəmizdə dövlət-din münasibətlərinin möhkəm təməllərə əsaslandığını bildirib.

## Fərqli mədəniyyətlər arasında münasibətlər

R.Məmmədov vurğulayıb ki, fərqli mədəniyyətlərə mənsub insanların bir arada yaşamaları, özlərini sosial həyatın bir hissəsi kimi hiss etmələri cəmiyyətin daha inklüziv, dinamik olmasına kömək edir: “Ölkəmiz isə bu prinsipə xüsusi önəm verir. Azərbaycanda cəmiyyətin həyat tərzi kimi qəbul etdiyi multikulturalizmin və dinlərarası harmoniyanın təşviqi dövlət siyasətinin prioritet istiqamətidir”.

Qonağa Azərbaycanda tolerantlıq sahəsində görülən işlər və həyata keçirilən layihələr barədə də məlumat verilib.Sonra çıxış edən Janna Skot mədəniyyətlərarası əlaqələrin yerli və qlobal səviyyədə müxtəlif aspektlərdə inkişaf etdirilməsinin əsas məqsədinin fərqli mədəniyyətlər arasında müsbət münasibətlər qurmaq, sosial əlaqələri gücləndirmək və insan hüquqları ilə bağlı anlayışları genişləndirmək olduğunu deyib.

O, Azərbaycanda müxtəlif mədəniyyət və din mənsublarının harmonik və sülh şəraitində yaşamalarını, ölkəmizin multikulturalizm mühitinin mütərəqqi modeli kimi təbliği istiqamətində görülən işləri müsbət dəyərləndirib. Görüşdə, həmçinin gələcək layihələr barədə müzakirələr aparılıb.

## Mingəçevir və Yevlaxda məscidlər ziyarət edilib

Bundan başqa, Dövlət Komitəsinin sədri Ramin Məmmədov dekabrın 11-də Mingəçevir şəhərində yerləşən “Heydər”, “Zəhra”, Mingəçevir kənd “Cümə” məscidlərini və Yevlax rayonu Havarlı kənd məscidini ziyarət edib.

Komitədən verilən məlumata görə, Ramin Məmmədov ibadət yerlərində fəaliyyət göstərən din xadimləri ilə görüş zamanı dini sahədə dövlət siyasətinin dünyəvilik, vicdan və dini etiqad azadlığı, dinlərin bərabərliyi kimi prinsiplərə əsaslandığını bildirib. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən uğurlu siyasətin dini dözümlülük mədəniyyətinin inkişafında mühüm rol oynadığını vurğulayan R.Məmmədov multikultural ənənələrin təbliğində Heydər Əliyev Fondunun fəaliyyətinin böyük əhəmiyyət daşıdığını deyib.

Dövlət Komitəsinin sədri dinin cəmiyyətdəki rolu və dini tolerantlığın təşviqi ilə bağlı fikirlərini bölüşərək, dövlətin dini icmalara dəstəyinin mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb. Komitə sədri diqqətə çatdırıb ki, din xadimləri fəaliyyətlərində Azərbaycanda tolerantlıq ənənələri, milli-mənəvi dəyərlərimizin təbliği, dövlətçilik və vətənpərvərlik prinsiplərini əsas götürməlidirlər.

Görüş zamanı R.Məmmədov bu cür ziyarətlərin dini icmaların fəaliyyətini və onların ehtiyaclarını öyrənmək məqsədi daşıdığını, eləcə də dini icmalar ilə dövlət arasında əməkdaşlığı daha da gücləndirmək baxımından vacib olduğunu qeyd edib.

Müxtəlif məsələlərlə bağlı rəy və təkliflərini bildirən din xadimləri ölkəmizdə dini etiqad azadlığının yüksək səviyyədə təmin olunmasından, dini icmalara göstərilən qayğıdan məmnunluqlarını ifadə ediblər.

# İqtisadi inkişaf göstəriciləri yüksəlib

## Qeyri-neft sektorunda ÜDM 6,4 faiz böyüyüb

2024-cü ilin yanvar-noyabr aylarında ölkədə 113 milyard 282,4 milyon manatlıq ümumi daxili məhsul (ÜDM) istehsal olunub ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4,1 faiz çoxdur. İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 0,4 faiz, qeyri neft-qaz sektorunda isə 6,4 faiz artıb. Eləcə də sənayedə, xüsusən də qeyri-neft sənayesində artım meyilləri yüksəlib. Ötən 11 ay ərzində 60 milyard manata yaxın sənaye məhsulu istehsal edilib ki, istehsalın əsas mənbəyini 8,8 faiz artımla qeyri neft-qaz sektoru təşkil edir.

Ölkə iqtisadiyyatının inkişafında ağırlıq mərkəzi tamamilə qeyri-neft sektorunun üzərinə transformasiya olunmaqdadır və hökumətin neft ÜDM-dən qeyri-neft ÜDM-ə keçid strategiyası özünü doğrultmaqdadır. Hökumətin yaxınmüddətli iqtisadi inkişaf ssenarilərinə əsasən, neft-qaz sektorunun tədricən daralacağı şəraitində iqtisadi artımın əsas hərəkətverici qüvvəsi qeyri-neft gəlirləri olacaq və 2024-cü ildə ÜDM-in tərkibində qeyri-neft sektorunun payının 72 faizə çatacağı proqnozlaşdırılır. Eyni zamanda, qeyri-neft resurslarının yüksək artımları müqabilində ilin sonunda ümumi daxili məhsulun 5-6 faiz təşkil edəcəyi fərz olunur.

### Vergi və sosial sığorta yığımlarında artım qeydə alınıb

2024-cü ilin 11 ayı ərzində biznesin aktivliyinin yüksəlməsi fiskal yığımların həcmini də artırıb, vergi orqanlarının xəttilə dövlət büdcəsinə 14 milyard 993 milyon manata yaxın vergi daxil olub. Fiskal yığımların 68,6 faizi qeyri-neft-qaz sektorunun, 31,4 faizi isə neft-qaz sektorunun payına düşüb. Qeyri-neft-qaz sektorundan daxilolmalar 10 milyard 286,2 milyon manatdan artıq olub ki, bu, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 14,1 faiz çoxdur. Qeyd edilən dövrdə sosial yığımlarda da artım qeydə alınıb. Muzdlu işçi sayının və əməkhaqqı fondunun "ağarması" prosesi şəraitində məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar 5 milyard manatdan çox olub. Bu, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 10,5 faiz çoxdur. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar ötən ilin yanvar-noyabr aylarına nisbətən 13 faiz artaraq 3,4 milyard manatdan çox təşkil edib.

İşsizlikdən sığorta haqları üzrə daxilolmalar 2023-cü ilin eyni dövrü ilə müqayisədə 12,4 faiz artaraq 183,9 milyon manat olub. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 14,8 faiz artıb və 139,1 milyon manatdan çox təşkil edib. İcbari tibbi sığorta haqları üzrə daxilolmalar isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 8,5 faiz artaraq 913,8 milyon manat olub. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 9,8 faiz artıb və 651,2 milyon manat təşkil edib.

2024-cü ilin yanvar-noyabr aylarında əsas kapitala 15,9 milyard manat məbləğində investisiya yönəldilib. İnvestisiyaların 8,1 milyard manatı və ya 51,2 faizi məhsul istehsalı sahələrinə, 5,6 milyard manatı (35,3 faizi) xidmət sahələrinə, 2,2 milyard manatı (13,5 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunub. Əsas kapitala yönəldilmiş investisiyaların 13 milyard manatını və ya 82,1 faizini daxili investisiyalar təşkil edib.




### Əhalinin gəlirləri artıb, inflyasiya isə sabit qalıb

**Hökumətin yaxınmüddətli iqtisadi inkişaf ssenarilərinə əsasən, neft-qaz sektorunun tədricən daralacağı şəraitində iqtisadi artımın əsas hərəkətverici qüvvəsi qeyri-neft gəlirləri olacaq və 2024-cü ildə ÜDM-in tərkibində qeyri-neft sektorunun payının 72 faizə çatacağı proqnozlaşdırılır. Eyni zamanda, qeyri-neft resurslarının yüksək artımları müqabilində ilin sonunda ümumi daxili məhsulun 5-6 faiz təşkil edəcəyi fərz olunur**

2024-cü ilin ötən 11 ayında digər müsbət göstəricisi inflyasiya ilə bağlıdır.Bu dövrdə istehlak qiymətləri indeksi 2 faiz təşkil edib. Hesabat dövründə əhalinin nominal gəlirlərində, bank əmanətlərində, ünvanlı sosial yardımın məbləğində, muzdlu işçilərin orta aylıq əməkhaqqında da artımlar qeydə alınıb ki, bu da uğurlu sosial-iqtisadi dinamika hesab edilə bilər. İqtisadiyyatda çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 7,8 faiz artaraq 993,2 manat təşkil edib. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, informasiya və rabitə, eləcə də nəqliyyat və anbar təsərrüfatı sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olub. Əhalinin real gəlirləri və bank dividendlərindən qazancı da 7-10 faiz arasında artıb.

### Asiya Bankı da Azərbaycanın artım proqnozunu yüksəldib

**2024-cü ilin yanvar-noyabr ayları üzrə makroiqtisadi göstəricilərdə qeydə alınmış müsbət dinamika Azərbaycan iqtisadiyyatının ili yüksək inkişaf proqnozları ilə tamamlayacağına əsaslar yaradır. Hazırda Azərbaycanda ÜDM-in 5 faizlik artım tempi dünya üzrə ümumi iqtisadi artım göstəricisindən (3,2-3,5 faiz) yüksəkdir. Bu faktor da ölkəmizdə iqtisadi inkişafı təmin edən mənbələrin dayanıqlılığı və növbəti dövrlər üçün əlavə potensialların səfərbər olunmasına imkan verdiyini təsdiqləyir**

Ümumilikdə, 2024-cü ilin yanvar-noyabr ayları üzrə makroiqtisadi göstəricilərdə qeydə alınmış müsbət dinamika Azərbaycan iqtisadiyyatının ili yüksək inkişaf proqnozları ilə tamamlayacağına əsaslar yaradır. Hazırda Azərbaycanda ÜDM-in 5 faizlik artım tempi dünya üzrə ümumi iqtisadi artım göstəricisindən (3,2-3,5 faiz) yüksəkdir. Bu faktor da ölkəmizdə iqtisadi inkişafı təmin edən mənbələrin dayanıqlılığı və növbəti dövrlər üçün əlavə potensialların səfərbər olunmasına imkan verdiyini təsdiqləyir. Bu tempin ilin sonunda və növbəti ildə də davam edəcəyi, qeyri-neft ÜDM-nin orta artımının 7-8 faiz təşkil edəcəyi gözlənilir.

Yeri gəlmişkən, Asiya İnkişaf Bankının (AİB) ötən gün açıqladığı "Asian Development Outlook 2024" icmalında Qafqaz və Mərkəzi Asiya regionunda cari il üçün iqtisadi artım proqnozlarına dəyişikliklər edilib ki, burada əsas müsbət məqam Azərbaycanla bağlıdır. Belə ki, Bank yenilənmiş makroiqtisadi göstəricilər xülasəsində Azərbaycanda ÜDM-in illik artım proqnozunu 4,7 fazidən 4,9 faizə yüksəldib. AİB Azərbaycanla bağlı inflyasiya proqnozlarını isə dəyişməz saxlayıb.

Ölkə iqtisadiyyatında əlavə dəyərin artımı əhalinin hər nəfərində düşən ÜDM-in də həcminin yüksəlməsinə səbəb olmaqdadı və bu göstərici növbəti illərdə daha da çoxalacaq. Hazırda bu rəqəm 11 min 104 manat və ya 6534 dollar təşkil edir. İqtisadiyyat Nazirliyinin proqnozlarına əsasən, 2025-ci ildə adambaşına düşən ÜDM-nin 7412 dollara, 2028-ci ilin sonuna isə 8522 dollara çatacağı fərz edilir.

*E.CƏFƏRLİ*

# 11 ayda rekord həcmdə ixrac

## Azərbaycan Türkiyə və Avropa İttifaqı ölkələrinə qaz nəqlini artırıb

2024-cü ilin yanvar-noyabr ayları üzrə respublikamızda 26,5 milyon ton neft, 45,8 milyard kubmetr təbii qaz hasil edilib. Qazın 12,1 milyard kubmetri "Azəri-Çıraq-Günəşli", 25,3 milyard kubmetri "Şahdəniz", 1,4 milyard kubmetri "Abşeron" yatağı, 7 milyard kubmetri isə SOCAR üzrə hasil olunub. Qaz hasilatı ötən ilin müvafiq dövrünə nisbətən 1,8 milyard kubmetr artıb. Hesabat dövründə xaricə qaz satışı 22,9 milyard kubmetr təşkil edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 5 faiz çoxdur. Mavi yanacağın 11,7 milyard kubmetri Avropaya, 9 milyard kubmetri Türkiyəyə, 2,2 milyard kubmetri isə Gürcüstana nəql edilib. Türkiyəyə TANAP-la bu müddətdə 5,1 milyard kubmetr qaz nəql olunub. Ümumilikdə, "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqlarından indiyədək 167,6 milyard kubmetr qaz ixrac edilib.

### 12 ölkənin təminatçısı

**Dövlət Neft Şirkəti (SOCAR) tərəfindən Slovakiyanın ən böyük dövlət enerji təchizatçısı olan "SPP" şirkətinə qaz təchizatına start verilib. Türkiyə, Gürcüstan, İtaliya, Yunanıstan, Bolqarıstan, Rumıniya, Macarıstan, Serbiya, Sloveniya, Xorvatiya, Şimali Makedoniyadan sonra respublikamızın müəllifi olduğu qaz alyansına Slovakiya da qoşulub. Bununla da, enerji tədarükü siyasətini şaxələndirən Azərbaycanın maye yanacaqla təchiz etdiyi ölkələrin sayı 12-yə çatıb**

2024-cü ilin yekununda Azərbaycanın illik qaz ixracının cəmin həcmi 25 milyard kubmetr proqnozlaşdırılır ki, onun da 13 milyard kub.metrinin Avropa İttifaqı (Aİ) ölkələrinə nəql ediləcək. Qeyd edək ki, Azərbaycan dekabrın 1-dən etibarən Avropa İttifaqının (Aİ) daha bir ölkəsinə - Slovakiyaya qazın nəqlinə başlayıb. Belə ki, Dövlət Neft Şirkəti (SOCAR) tərəfindən Slovakiyanın ən böyük dövlət enerji təchizatçısı olan "SPP" şirkətinə qaz təchizatına start verilib. Türkiyə, Gürcüstan, İtaliya, Yunanıstan, Bolqarıstan, Rumıniya, Macarıstan, Serbiya, Sloveniya, Xorvatiya, Şimali Makedoniyadan sonra respublikamızın müəllifi olduğu qaz alyansına Slovakiya da qoşulub. Bununla da, enerji tədarükü siyasətini şaxələndirən Azərbaycanın maye yanacaqla təchiz etdiyi ölkələrin sayı 12-yə çatıb.

### "Abşeron" yatağı güclü mənbəyə çevrilir

**Əsas perspektivli yataqlardan biri olan "Abşeron" yatağında da hasilatın həcmində əhəmiyyətli artımlar müşahidə edilməkdədir. 2024-cü ilin 11 ayında bu yataqdan 1,4 milyard kubmetr qaz hasil edilib ki, bu, əvvəlki ilə nisbətdə 2 dəfəyə yaxın artım deməkdir. Bu yataqda 350-360 milyard kubmetr qaz ehtiyatları ehtimal edilir**

Azərbaycanda qaz hasilatında əsas mənbə olan "Şahdəniz -2" layihəsi üzrə hasilat hər il artır və təkcə bu mənbədən hazırda illik 16 milyard kubmetr qaz istehsal edilir. "Şahdəniz"in əlavə ehtiyatlarından başqa Xəzərdə kəşf edilmiş "Abşeron" və "Ümid" yataqları, "Azəri-Çıraq-Günəşli" yataqlar blokundakı dərin qaz ehtiyatları, olduqca perspektivli "Şəfəq-Asiman", "Babək", "Zəfər-Məşəl" və başqa strukturlar da ölkəmizin potensialının artmasında mühüm rol oynamaqdadır.

Əsas perspektivli yataqlardan biri olan "Abşeron" yatağında da hasilatın həcmində əhəmiyyətli artımlar müşahidə edilməkdədir. 2024-cü ilin 11 ayında bu yataqdan 1,4 milyard kubmetr qaz hasil edilib ki, bu, əvvəlki illə nisbətdə 2 dəfəyə yaxın artım deməkdir. Bu yataqda 350-360 milyard kubmetr qaz ehtiyatları ehtimal edilir. Digər qiymətləndirmələr bu yatağın ehtiyatlarının 400 milyard kubmetrdən də çox olduğunu deməyə əsas verir. Bu isə təkcə, "Abşeron"un Aİ-yə ən azı 20-25 qaz nəqlində perspektiv mənbə olacağını təsdiqləyir. Yeri gəlmişkən, dünyanın ən nüfuzlu iqtisadi institutlarından biri olan "Fitch Ratings" bir müddət əvvək açıqladığı hesabatda "Abşeron" qaz-kondensat yatağının "Şahdəniz-2"dən sonra Azərbaycanın ən böyük qaz mədəni olduğunu bildirib. Ümumilikdə, "Abşeron" və digər yataqlarda da daxil olmaqla, Azərbaycanın təsdiqlənən qaz ehtiyatları 2,6 trilyon kubmetr fərz edilir.

**Hazırda illik 25 milyard kubmetr qaz nəql edən Azərbaycanın yaxın 5 il ərzində hasilatı və ixracı 20 faiz artıraraq ixracın həcmini 30-31 milyard kubmetrə qədər çatdırması proqnozlaşdırılır. Həmin qazın 20 milyard kubmetrinin Avropaya nəqli nəzərdə tutulur. Bu nikbin proqnozlar Qaz İxrac Edən Ölkələrin Forumunun (GECF) bir neçə ay əvvəl açıqladığı hesabatda da öz əksini tapıb**

### Türk dövlətlərinin Cənub Qaz Dəhlizinə qoşulması




Hazırda illik 25 milyard kubmetr qaz nəql edən Azərbaycanın yaxın 5 il ərzində hasilatı və ixracı 20 faiz artıraraq ixracın həcmini 30-31 milyard kubmetrə qədər çatdırması proqnozlaşdırılır. Həmin qazın 20 milyard kubmetrinin Avropaya nəqli nəzərdə tutulur. Bu nikbin proqnozlar Qaz İxrac Edən Ölkələrin Forumunun (GECF) bir neçə ay əvvəl açıqladığı hesabatda da öz əksini tapıb. Həmin pronozlara əsasən, Avropanın etibarlı və uzunömürlü qaz təminatı strategiyasında Azərbaycanın rolu daha da artacaq və 2025-2027-ci illərdə ölkəmizin qaz istehsalı və nəqli 40 faiz çoxalacaq. Nəticədə Avropaya qaz nəql edən TAP kəmərinin illik gücü 20 milyard. kubmetri də ötmüş olacaq. Həmçinin, Avropa İttifaqı ölkələrinə Azərbaycanın enerji resursları ilə yanaşı, digər Xəzəryanı ölkələrin də yanacaq ehtiyatlarının cəlb olunmasını nəzərdə tutulur. Hazırda Aİ-nin enerji məsələləri üzrə nümayəndə heyəti ilə digər türk dövlətlərinin - Türkmənistan, Özbəkistan və Qazaxıstanla yanacağın Cənub Qaz Dəhlizinə ötürürülməsi istiqamətində aktiv danışıqlar aparılmaqdadır. Bu isə Cənub Qaz Dəhlizinin daha da genişlənməsini təmin edəcək.

Beləliklə, mövcud istehsal dinamikası və perspektiv yataqlardakı hasilat işlərinin irəliləməsi tamamilə imkan verir ki, Azərbaycan Avropa Komissiyası ilə 2022-ci ildə imzaladığı anlaşmada nəzərdə tutulduğu həcmdə - qazın 2027-ci ilə qədər iki dəfə artırılaraq 20 milyard kubmetrə çatdırılması öhdəliyini təmin edəcək.

*E.CƏFƏRLİ*

# Referendumun ünvanı niyə dəyişir?

## İrəvan AİI-yə sədrlik etdiyi halda, Aİ üzvü olmaq üçün ümumxalq səsverməsi keçirmək istəyir...

Fransanın silahlandırmasının işə yaramayacağını görən Ermənistan sülh prosesini ləngitmək üçün yeni manipulyasiyaya əl atır. Bu dəfə başqa bir "xəyal" - Avropa İttifaqına üzvlük məsələsi ortaya atılıb. Qeyd edək ki, bir neçə gün öncə Ermənistan Mərkəzi Seçki Komissiyası bu ölkənin Avropa İttifaqına üzvlüyü üçün lazım olan imzaların 50 minini etibarlı sayıb. Bundan öncə isə "Ermənistanın Avropa Partiyası"nın rəhbəri Tiqran Xzmalyan bildirmişdi ki, Ermənistanın Baş naziri Nikol Paşinyan ölkənin Avropa İttifaqına üzvlüyünə dair referendum keçirilməsi təşəbbüsünü dəstəkləyib. Xatırladaq ki, parlament MSK-nın təqdimatını geri qaytarsa, layihə qanunverici orqanın dəstəyini qazana bilməsə, kampaniya yenidən keçirilə bilər - bu halda 300 min imza toplamaq gərəkir. Belə olan halda referendum qanunverici orqanın qərarı olmadan baş tutacaq.

### Aİ üzvü olmaq üçün AİI-dən imtina - İrəvan təhlükəli oyuna girib...

Qeyd edək ki, Ermənistan Avropa İttifaqının "Şərq Tərəfdaşlığı" proqramına 2009-cu ildən qoşulub. Bu proqram Aİ ilə altı postsovet ölkəsi arasında daha sıx siyasi və iqtisadi əlaqələri təşviq etmək məqsədilə yaradılıb. Ermənistanın bu proqramdakı əsas məqsədi Avropa ilə əlaqələri genişləndirmək, iqtisadiyyatını "modernləşdirmək" və "siyasi islahatlar" aparmaq olmuşdu. 2013-cü ildə Ermənistan Şərq Tərəfdaşlığı çərçivəsində Aİ ilə Assosiasiya Sazişi imzalamaqdan imtina etmişdi - çünki rəsmi İrəvan Aİ ilə fərqli qütbləri təmsil edən Avrasiya İqtisadi İttifaqına üzvlüyü seçmişdi. Bununla belə, 2017-ci ildə Ermənistan və Aİ arasında Genişləndirilmiş və Hərtərəfli Tərəfdaşlıq Sazişi (CEPA) imzalandı. İndiki halda, Ermənistanın Aİ üzvlüyünə namizəd olmaq üçün etdiyi cəhdlər həqiqətən də "xəyaldır" - buna bir neçə mühüm arqument var:

- Aİ üzvlüyünə namizəd olmaq üçün illərlə uzanacaq bir prosesdən keçmək gərəkir ki, İrəvandan qabaq bu siyahıda növbə gözləyən onlarla dövlət dayanıb. Aİ Avropanın mərkəzində yerləşən ölkələri üzv qəbul etmədən necə olur ki, heç bir sərhədi olmadığı Ermənistanı "qəbul edir"?

- Ermənistanın AİI ilə bağlanmış müvafiq müqavilələri mövcuddur. İlk növbədə Ermənistan AİI və KTMT-dən çıxmalı olacaq. Ermənistan ilə Avrasiya İqtisadi İttifaqını bir çox normativ aktlar bağlayır. Bu təşkilat ümumi bazardır. Bu ümumi bazarı tərk edib başqa bazara girmək üçün Ermənistan nələrdən keçməlidir, düşünübmü? Nəzərə alınmalıdır ki, Ermənistan hazırda AİI-nin fəaliyyətdə olan sədridir.

- Ermənistanla Avrasiya İqtisadi İttifaqı arasında münasibətlərin pozulması bu ölkə üçün açıq iqtisadi çöküş yaradacaq. Müvafiq rəqəmlər göstərir ki, Ermənistanın illik ticari dövriyyəsində AİI-nin payı daha çoxdur.

Beləliklə, Ermənistanın AİI-ni Aİ-yə dəyişməsi heç də düşündüyü qədər asan bir yol deyil - nəzərdə tutulan "referendum" isə siyasi məqsədlərə hesablanıb.

### Sülh danışıqları yekun mərhələdə - Konstitusiyanı dəyişmək üçün...

Bəlli olduğu kimi, Ermənistan ilə Azərbaycan arasında gedən münasibətlərin normallaşması prosesi mühüm bir irəliləyiş əldə edib. Yeri gəlmişkən, Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov jurnalistlərə açıqlamasında deyib ki, Ermənistanla sülh müqaviləsi layihəsi 17 maddədən ibarətdir, artıq 15 maddə razılaşdırılıb. Nazir qeyd edib ki, 2 maddə ilə bağlı işlər isə davam edir. Onun sözlərinə görə, sülh müqaviləsinin layihəsi 17 maddə və preambuladan ibarətdir: "Preambula və 15 maddə üzrə demək olar mətnlər tam razılaşdırılıb. 2 maddə üzrə isə açıq suallarımız var. Həmin açıq suallar üzrə son müddət ərzində işlər davam edir. Artıq bir neçə raund danışıqlar olub və mətn mübadilələri həyata keçirilib. Hələ ki, tam razılaşdırılmış varianta gəlmək mümkün olmayıb. İşlər davam edir".

**2013-cü ildə Ermənistan Şərq Tərəfdaşlığı çərçivəsində Aİ ilə Assosiasiya Sazişi imzalamaqdan imtina etmişdi - çünki rəsmi İrəvan Aİ ilə fərqli qütbləri təmsil edən Avrasiya İqtisadi İttifaqına üzvlüyü seçmişdi**



Ceyhun Bayramov qeyd edib ki, postmünaqişə dövründə Azərbaycan və Ermənistan sülh danışıqlarını və mətn üzrə mübadilələri davam etdiriblər: "Azərbaycan və Ermənistan arasında normallaşma istiqamətində danışıqlar davam etdirilib. Eyni zamanda, sülh müqaviləsi üzrə də çoxsaylı görüşlər həyata keçirilib, həmçinin mətn üzrə mübadilələr davam etdirilib. Burada da açıq suallar qalmasına baxmayaraq, bəlli irəliləyişlər əldə edilib".

XİN rəhbəri bildirib ki, Ermənistan Konstitusiyasında Azərbaycana qarşı ərazi iddiaları var: "Bu yaxınlarda Ermənistan Konstitusiya Məhkəməsinin qərarı bu işi daha da mürəkkəbləşdirib. Çünki məhz Ermənistan Konstitusiyasının preambulasında Ermənistan müstəqillik əldə edəndən sonra olan sənədə istinad var və o sənəddə də Azərbaycana ərazi iddiaları var".

Göründüyü kimi, Ermənistan, əslində referendum keçirib öz Konstitusiyasını

**Ermənistanın AİI-ni Aİ-yə dəyişməsi heç də düşündüyü qədər asan bir yol deyil - nəzərdə tutulan "referendum" isə siyasi məqsədlərə hesablanıb**

dəyişməli, bölgədə sabit inkişaf üçün zəmin yaratmalı, nəhayət, sülh müqaviləsini imzalamalıdır. Bir müddət öncə baş nazir Nikol Paşinyan da bunu etiraf etmişdi və referendumun keçiriləcəyi ilə bağlı fikirlərini açıqlamışdı. Bəs necə oldu ki, Ermənistan artıq "yeni referendum" haqda danışır? Halbuki, onların hədəfi indiki halda Konstitusiyanı dəyişmək və bölgədə normal qonşuluq münasibəti formalaşdırmaqdır...

### İrəvan nəyə ümid edir?

Bu isə Ermənistana heç bir dividend vəd etmir. Min bir yola əl atmaqla regionda davamlı sülhün yaranmasını ləngidən Ermənistan bu kimi qeyri-konstruktiv addımlardan çəkinməlidir - necə olur ki, cəmisi bir neçə gün ərzində Aİ-yə üzvlüklə bağlı keçiriləcək referendumun "hüquqi zəmini" yaradılır, amma iki ildən artıqdır ki, Azərbaycanın irəli sürdüyü haqlı referendum tələbi yerinə yetirilmir? Demək ki, Ermənistan danışıqlar prosesində hələ də "nəyəsə" ümid edir. Amma bu ümid də boşunadır...

*P.SADAYOĞLU*

### Aİ-yə "sırınmaq" - Ermənistan reallığı görür...

Təbii ki, Aİ üzvlüyü və referendum hazırlığı siyasi oyunbazlıqdır. Burada son proseslər mühüm rol oynamaqdadır. İrəvanın Fransa ilə "işbirliyi" artıq demək olar ki, "daşa" dəyib - daha doğrusu, Paris onlara kömək edə bilmir. Çünki həm Aİ-də nüfuzunu itirib, həm də siyasi-hərbi öncüllükdən "çıxarılıb". Nəzərə alsaq ki, İrəvanın "söykəndiyi" Bayden administrasiyası da sonuncu hakimiyyət ayını yaşayır, Ermənistan özünə yeni "çətir" axtarmaq məcburiyyətinə qalıb. Bu səbəbdən də yeni sığınacaq kimi Aİ-ni "seçib". İrəvan anlayır ki, danışıqlar prosesindən kənarlaşdırılan Aİ artıq baş verənlərə müdaxilə etmək imkanında və marağında deyil - Fransadan başqa isə buna heç bir dövlət bu prosesə daxil olmaq istəmir. Ermənistan isə mütləq kiminsə kölgəsində gizlənməlidir - hədəf yəqin ki, Almaniyanın "diqqətini" cəlb etməkdir. Özünü "Aİ ailəsinin üzvü, həmfikiri" kimi təqdim etməklə Ermənistan yenidən onların köməyindən istifadə etməyə çalışır.

**Ermənistan, əslində referendum keçirib öz Konstitusiyasını dəyişməli, bölgədə sabit inkişaf üçün zəmin yaratmalı, nəhayət, sülh müqaviləsini imzalamalıdır**

# Bir gün qaldı...

## Gürcüstanda dekabrın 14-də keçiriləcək prezident seçkilərindən sonra Zurabişvilini hansı tale gözləyir?

**Qonşu Gürcüstan gərgin keçən on birinci çağırış parlament seçkilərindən sonra indi də növbəti prezident seçkiləri ərəfəsindədir. Seçkilərin keçirilməsinə bir gün qalır. Dekabrın 14-də Gürcüstan özünün altıncı prezidentini seçəcək. Ölkədə cari ildə xarici təsirin şəffaflığı və ailə dəyərlərinin qorunması ilə bağlı qanunların qəbul olunması, son parlament seçkiləri fonunda müşahidə edilən müxalifət-iqtidar qarşıdurması fonunda prezident seçkilərinin necə keçəcəyi də böyük maraq doğurur. Açıq deyək, bu dəfə də ajiotaj yaşanacağı ehtimalları böyükdür.**

### Gürcüstan tarixində bir ilk

Növbəti prezident seçkilərində Gürcüstan tarixində bir ilkə imza atılacaq. Belə ki, bu dəfə ölkədə prezident ümumxalq səsverməsi ilə deyil, parlamentdə 300 nəfərdən ibarət seçki kollegiyası tərəfindən seçiləcək. Parlament dekabrın 13-də payız sessiyasını bağlayacaq, dekabrın 14-də isə seçki kollegiyası Gürcüstan prezidentini seçəcək. Kollegiyaya bütün deputatlar daxildir. Gürcüstan parlamentinin sədri Şalva Papuaşvilinin verdiyi məlumata əsasən, prezident seçkiləri ilə əlaqədar bütün işlər tamamlanıb. Seçkilər sabah saat 09:00-da Parlament Sarayında baş tutacaq.

Gürcüstan Konstitusiyasına və qanunvericiliyin tələblərinə əsasən, seçki kollegiyasında parlamentin, Abxaziya və Acarıstan Muxtar respublikalarının Ali sovetlərinin, habelə siyasi partiyalar tərəfindən irəli sürülmüş şəhər şuralarının üzvlərinin hamısı proporsional şəkildə təmsil olunmalıdır. Konstitusiyaya görə, namizəd birinci turda seçilmək üçün kollegiya üzvlərinin ən azı üçdə ikisinin səsini toplamalıdır. Prezidentliyə namizəd bu səsi toplaya bilməsə, ikinci tur keçiriləcək. Prezidentin andiçmə mərasimi dekabrın 29-da, seçki günündən sonra üçüncü bazar günü keçiriləcək. Dövlət başçısı bu vəzifəni 5 il müddətinə icra edəcək. Hakim "Gürcü Arzusu-Demokratik Gürcüstan" Partiyası Gürcüstanın altıncı prezidenti vəzifəsinə Mixail Kavelaşvilinin namizədliyini irəli sürüb və onun namizədliyi artıq təsdiq olunub.

**Gürcüstan Konstitusiyasına və qanunvericiliyin tələblərinə əsasən, seçki kollegiyasında parlamentin, Abxaziya və Acarıstan Muxtar respublikalarının Ali sovetlərinin, habelə siyasi partiyalar tərəfindən irəli sürülmüş şəhər şuralarının üzvlərinin hamısı proporsional şəkildə təmsil olunmalıdır. Konstitusiyaya görə, namizəd birinci turda seçilmək üçün kollegiya üzvlərinin ən azı üçdə ikisinin səsini toplamalıdır. Prezidentliyə namizəd bu səsi toplaya bilməsə, ikinci tur keçiriləcək. Prezidentin andiçmə mərasimi dekabrın 29-da, seçki günündən sonra üçüncü bazar günü keçiriləcək. Dövlət başçısı bu vəzifəni 5 il müddətinə icra edəcək**

### Zurabişvili özünü yeganə qanuni institut saysa da...

Biz yuxarıda Gürcüstanda prezident seçkilərinin müəyyən ajiotajla müşayiət olunma ehtimalına təsadüfən vurğu etmədik. Məsələ burasındadır ki, indiki prezident Salome Zurabişvili də daxil olmaqla birləşmiş müxalifət 26 oktyabr parlament seçkilərinin nəticələrini tanımır və yeni seçkilər keçirilməsində israr edir. Eyni zamanda, Qərb dairələrindən müxalifətə güclü şəkildə dəstək gəlir. S.Zurabişvilinin özünün də postunu tərk etmək fikri yoxdur. Yeni parlamenti və bununla da seçki kollegiyasını tanımayan S.Zurabişvili özünü Gürcüstanda yeganə qanuni institut adlandırıb və müxalifət partiyalarını razılaşdırılmış qərarlar verməyə çağırıb.

S.Zurabişvilinin dosyesində diqqət çəkən məqamlardan biri ondan ibarətdir ki, "Gürcü Arzusu - Demokratik Gürcüstan" Partiyası 2018-ci il seçkilərində məhz onun namizədliyini dəstəkləyib. Aradan bir müddət keçəndən sonra isə Zurabişvili hakim partiyaya qarşı müxalifət mövqeyinə keçib. Həm də bu, ilk belə hal deyil. Xatırladaq ki, sabiq prezident Mixeil Saakaşvili 2004-cü ilin martında S.Zurabişvilini Gürcüstanın xarici işlər naziri təyin edib. Bunun üstündən heç bir il keçməmiş - 2005-ci ilin oktyabrında o, M.Saakaşvilinin ünvanına tənqidlər səsləndirdiib və sonra da vəzifəsindən azad edilib. Bundan sonra S.Zurabişvili müxalifətə keçərək M.Saakaşvilinin istefası tələbi ilə keçirilən aksiyalarda fəllıq göstərib.

Hazırda S.Zurabişvili həm Fransanın, həm də Gürcüstanın ikili vətəndaşlığına malikdir. Buradan da onun Qərbə rəğbətinin məntiqi başa düşülür. Bir neçə gün bundan əvvəl - ölkədə gərginliklər yaşandığı bir vaxtda S.Zurabişvili növbəti dəfə Parisə səfərə gedərək Notr - Dam kilsəsinin bərpadan sonra açılışına qatılıb. Onun özünün və birləşmiş müxalifətin ABŞ-nin yeni seçilmiş prezidenti D.Trampın da qatıldığı tədbirdən gözləntiləri böyük idi. Makronun vasitəçiliyi ilə ABŞ prezidentindən Gürcüstan müxalifətinə dəstək istənilməsi ilə bağlı planar qurulmuşdu. Ancaq tədbirdən təqdim olunan foto və video materiallardan da göründüyü kimi, gözləntilər doğrulmayıb. Xanım Zurabişvilinin canfəşanığına rəğmən, özünəməxsus xarakterə malik olan D.Tramp onun salamını, necə deyərlər, barmağının ucu ilə alıb...



### Müxalifət seçkiləri pozmaq istəyir

Bu arada etiraz aksiyalarının təşkilatçıları tərəfindən prezident seçkilərini pozmağa və bu məqsədlə vəziyyəti maksimum gərginləşdirməyi hədəfləyən planlar qurulduğuna dair məlumatlar yayılıb. Bu barədə Gürcüstanın Dövlət Təhlükəsizlik Xidmətindən bildirilib. "Əldə edilmiş məlumata görə, destruktiv və cinayətkar fəaliyyətlərin təşkilatçıları bu il dekabrın 14-nə təyin edilmiş prezident seçkilərinin baş tutmamasını və bütün vasitələrlə Gürcüstanın altıncı prezidentinin seçilməsinə mane olmağı planlaşdırırlar. Bu da süni şəkildə hakimiyyət böhranına səbəb olacaq", - deyə xidmətin yaydığı bəyanatda vurğulanıb.

Məlumatda vətəndaşlara etiraz təşkilatçılarının planının iştirakçısı və ya qurbanı olmamaq üçün maksimum ehtiyatlı olmağa çağırış da var.



S.Zurabişvilinin səlahiyyət müddətinin dekabrda tamamlanması fonunda onun sonrakı taleyi ilə bağlı müzakirələr başlayıb. Gürcüstanın mövcud qanvericiliyinə görə, dövlət təhlükəsizliyi prezident, baş nazir və parlament sədri təyin olunduqları/seçildikləri andan təmin edilir və səlahiyyət müddəti bitdikdən sonra bir il müddətində qalır. Ancaq Zurabişvili bu imtiyazını daha tez itirə bilər.

Məsələ burasındadır ki, hakim "Gürcü Arzusu" partiyası parlamentə düzəliş təqdim edib. Həmin düzəlişə əsasən, keçmiş yüksək vəzifəli məmurlar Konstitusiyanı pozarsa, onların müdafiəsi ləğv ediləcək. İndiki prezidentə qarşı belə bir məhkəmə qərarı var. 2023-cü ilin oktyabrında Konstitusiya Məhkəməsi bəyan edib ki,

**S.Zurabişvilinin səlahiyyət müddətinin dekabrda tamamlanması fonunda onun sonrakı taleyi ilə bağlı müzakirələr başlayıb. Gürcüstanın mövcud qanvericiliyinə görə, dövlət təhlükəsizliyi prezident, baş nazir və parlament sədri təyin olunduqları/seçildikləri andan təmin edilir və səlahiyyət müddəti bitdikdən sonra bir il müddətində qalır. Ancaq Zurabişvili bu imtiyazını daha tez itirə bilər**

### Taleyin ironiyası

Gürcüstan prezidenti xaricə işgüzar səfərlər zamanı hökumətin razılığı olmadan beynəlxalq münasibətlər sahəsində nümayəndəlik funksiyalarını həyata keçirib və bununla da Gürcüstan Konstitusiyasının 52-ci maddəsini pozub.

Beləliklə, səlahiyyət müddəti bitəndən sonra S.Zurabişvilinin dərhal məsuliyyətə cəlb olunması ehtimalı böyükdür. Hazırda Gürcüstanın sabiq prezidenti M.Saakaşvili həbsdədir. O qənaət hasil olur ki, Zurabişvilini də zamanında arxa çevirdiyi Saakaşvilinin aqibəti gözləyir. Bu da taleyin bir ironiyasıdır.

*Mübariz ABDULLAYEV*

# Miraslan Bəkirli - Doğma Vətəndə qərib yaşayan yazıçı



Müasir Azərbaycan nəsrinin tanınmış nümayəndələrindən biri Miraslan Bəkirli ixtisasca ali təhsilli geoloq olsa da, iş-güc taleyini mətbuata, televiziyaya bağlamışdır. Bir sözlə, ömrünü qələmlə həmdəm olmağa könül vermişdir.

1984-cü ildən bədii yazıları ilə müntəzəm olaraq ədəbi orqanlarda çap olunan yazıçı bu gün peşəkar qələm ustası kimi Azərbaycan ədəbiyyatında öz dəst-xətti olan bir yazıçı kimi “Çən qarısı” (uşaq hekayələri), “İstək” (hekayələr, povetlər, esse və mənsur şeirlər), “Qaçqının ünvanı olmur” (publisistika), “Kəndim-kədərim” - 2 cilddə (publisistika), “Əsərlər” - 1-5-ci cildlər (hekayələr, povestlər, publisistika və “Sürgün”, “Mübariz” romanlarının müəllifi kimi tanınır. Miraslan Bəkirlinin son illərdə yazdığı iki romanı ona böyük şöhrət gətirmişdir: “Sürgün” və “Mübariz”.

İstedadlı yazar Miraslan Bəkirlinin “Sürgün” romanı Qərbi Azərbaycanın tarixinə həsr olunmuş əsərlərdən biridir. Romanın digər oxşar mövzulu əsərlərdən fərqli cəhəti ondan ibarətdir ki, burada əzablara məruz qalmış soydaşlarımızın, imperiyanın millətçi erməni cəlladlarına qarşı hər bir şəraitdə göstərdiyi mübarizə iradəsi ön plandadır. Əsərin başlanğıcında Sibirə sürgün olunan insanların yük vaqonlarında yaşadığı ağır məşəqqətlər təsvir olunur. Bu dramatik səhnələrdən biri - Əsədin milliyyətcə erməni komendantına nifrəti oxucuda həm təskinlik, həm də bir haqqın bərpa olunduğu hissini yaradır. Yazıçı hadisələri öz ruhunda yaşayıb və təsvir obyektini dəqiqliklə seçmişdir. Romanın qəhrəmanları olan Qərbi Azərbaycan türkləri çətin şəraitdə olsalar da, qisas almağı və şərə qalib gəlməyi bacarmışlar.

“Sürgün” romanında müasir gənclik üçün ibrətamiz dərslər, çətinliklərə qarşı mübarizə yolları və tariximizin unudulmaması üçün vacib mesajlar verilir. Bu əsər, keçmişimizi dərk etmək və gələcəyimizə daha güclü addımlarla irəliləmək üçün əvəzsiz mənbədir.

“Mübariz” romanında iyirmi iki yaşlı Azərbaycan - türk əsgərinin qeyri-adi qəhrəmanlığı təsvir edilir. Əsərdə, müəllifin də yazdığı kimi, türk əsgərinin ümumiləşdirilmiş obrazı yaradılıb və oxucuları bu qəhrəmanlıq nümunəsinə inanmağa çağırır. Mübariz İbrahimov müasir dövrdə öz qəhrəmanlığı ilə milyonları heyrətləndirib. Bu əsər, Milli Qəhrəman Mübariz İbrahimovun timsalında, Vətən uğrunda canından keçən bütün şəhidlərimizə ithaf edilib.

Miraslan Bəkirli çox təsirli, düşündürücü esselərin müəllifidir: “Gecikmə”, “Bu Mənəm”, “Qardaşlar”, “Didərginlik dərdi”, “Qan yaddaşı”, “Etiraf”, “Torpaq”, “İstərəm” və sair.

Bu esselər müxtəlif mövzulara toxunsa da, bir-birini tamamlayan dərin insanilik və emosional zənginliklə doludur. Onların hər birinə ayrılıqda nəzər salaq:

“Bu Mənəm” adlı bir essesində şəxsiyyətin bütövlüyü, kimlik və həyatın mahiyyəti üzərində qurulmuşdur. Müəllif öz mənliyini müxtəlif metaforalar vasitəsilə təsvir edir: Nər kimi, ər kimi, şir kimi, pir kimi - bu ifadələr müəllifin öz şəxsiyyətini, gücünü, məsuliyyətini və inancını simvollaşdırır. Müəllif həm babalarının irsini daşıyan bir ər, həm övladlarına dayaq olan bir şir, həm də Tanrıya bağlı bir pir kimi görünür.

“Gecikmə...” - bu essedə gözləmə həm təcrübə, həm də introspeksiya üçün bir vasitə kimi göstərilir. Həsrət çəkilən insanın nə vaxtsa gələcəyinə olan ümid, bu gözləməni mənalı və gözəl edir.

“Bu Mənəm” və “Gecikmə” əsərlərində müəllifin daxili dünyası zəngin poetik təsvirlərlə açılır. “Bu Mənəm” insanın öz kimliyini dərk etməsi və bu kimliyi qorumaq ehtirasını ifadə edərkən, “Gecikmə...” gözləmənin və həsrətin gətirdiyi hisslərə və bu hisslərin insanın mənəvi inkişafına təsirinə fokuslanır. Hər iki əsərin əsas mesajı insanın öz daxili dünyası ilə bağlıdır: birincidə şəxsiyyətin gücü və sabitliyi, ikincidə isə gözləməkdən doğan hüzur və bağışlamaq qabiliyyəti ön plandadır.

“Didərginlik dərdi” essesinə diqqət edək:

“Qaysağı qoparılmış yaradı - didərginlik dərdi. Didərginin arzuladığı nə var-dövlət, nə pul-paradı, ağrısı nə xəstəlikdi, nə yaradı.Ürək göynədən, qəlb ağrıdan İblisin yaratdığı faciə simfoniyasıdı - didərginlik dərdi. Vallah, qardaş, ağır dərddi didərginlik dərdi. Onu çəkənlər bilər, elə didərginlikdi, didərgin dərdi...” müəllif bu beş cümləlik essedə məcburi köçkünlük və ya doğma torpaqlarından didərgin düşmüş insanların ağrısını təsvir edir. “Didərginlik dərdi” ifadəsi bir xalqın kollektiv travmasını və yadellərdə kök salmaq çətinliyini tərənnüm edir. Bu esse, yurdundan məhrum olmağın insanın ruhuna və qəlbinə vurduğu sağalmaz yaraları vurğulayır.

Yekun olaraq, “Torpaq” və “İstərəm” esseləri insan və torpaq arasındakı möhkəm bağın, Vətənə sevginin və təbiətlə harmoniyanın poetik ifadəsidir. “Torpaq” mətnində torpağın müqəddəsliyi və dərin mənəvi anlamları vurğulanır, “İstərəm” isə vətənə olan həsrəti və fədakarlıq ruhunu canlandırır. Hər iki əsər oxucunu duyğulandıran və dərin düşünməyə sövq edən epik-lirik tablodur.

“Qan yaddaşı”nda yazı və yaradıcılığın insan həyatındakı funksiyasını izah edir. Yazmaq burada bir növ özünütəsdiq vasitəsidir. Müəllif yazını babalarının mirası, qan yaddaşı kimi təqdim edir. Onların daş üzərində yazdıqlarını öz kağız üzərində davam etdirdiyini bildirir. Bu, tarix və mədəniyyətin davamlılığına, nəsildən-nəslə ötürülən irsə işarədir. Esse, yazının yalnız bir ifadə vasitəsi olmadığını, həm də tarixin, yaddaşın və mənəvi kimliyin qorunması üçün vacib olduğunu göstərir. Burada müəllif yazını həm dərd, həm də sevincin bir ifadəsi kimi təsvir edir.

“Etiraf - dialoq” essesində ölüm və insanın mənəvi vəziyyəti üzərində fəlsəfi bir mübahisəni təqdim edir. Danışan iki şəxs həyat, ölüm, iman və qəhrəmanlıq anlayışlarını fərqli bucaqlardan dərk edir. Birinci şəxs, ölümü mənəvi bir sınaq, hətta bir zirvə olaraq görür, özünü imanına və mənəvi gücünə əsaslanaraq qəhrəman kimi təqdim edir. İkinci şəxs isə öz anlayışını bu səviyyəyə çatdırmadığını etiraf edir və daxili axtarışdadır. Bu esseləri oxuyarkən, hər bir oxucu öz həyat təcrübəsindən müəyyən bir hissəni burada tapa bilər, çünki hər iki mətn insanın universal duyğularını əks etdirir. İnsanın mənəviyyatı, kimliyi, ağrıları və həyatdakı mübarizələrinə toxunur. Oxucunu düşünməyə, öz həyatını və dəyərlərini təhlil etməyə sövq edir. Onlar həm fərdi, həm də kollektiv təcrübələrin dərinliyini əks etdirir və böyük ədəbiyyat nümunəsi olaraq qəlbimizi titrətməyi bacarır.

Əsərlər çoxqatlı məna və emosional dərinliklər təqdim edir. Onları şərh edərək əsas mövzularını və emosional təsirlərini aydınlaşdırmağa çalışdıq.

Miraslan Bəkirli bir publisist kimi də, təsirli, ibrətamiz və tarixi yazıların müəllifidir. “Fəryad edən abidələr” adlı məqaləsində Qərbi Azərbaycanın qədim tarixi-mədəni irsinin erməni vandalizmi nəticəsində məhv edilməsi və bu abidələrin əsl tarixi kimliyinin saxtalaşdırılması mövzusuna toxunur. Bu gün Qərbi Azərbaycan ərazilərindəki qəbirlərimiz, ziyarətgahlarımız və tarixi abidələrimiz fəryad edir ki, qurtarın bizi bu vandalların əlindən. Ermənilər yerüstü abidələri məhv etsələr də, ora dönəndən sonra özümüz, öz alimlərimiz yeraltı abidələri araşdıracaq, o baba əmanətlərinə yeni həyat verəcəklər. Şuşadan sonra bizim növbəti dönüş yurdlarımız Göyçədir, Dərələyəzdir, İrəvandır”, - deyə yazıçı-jurnalist yazır.

Yazımızın əvvəlində də qeyd etdiyimiz kimi, Miraslan Bəkirli, eyni zamanda, televiziya işçisi olub. O, burada da onu ağrıdan, bütün həyatını stresslər, nigaran və narahatçılıqlar içində yaşamasına səbəb olan mövzuları qəhrəmanlarının dilindən lentə alıb.

Həftədə bir, bəzən iki dəfə Miraslan Bəkirlinin lentə aldığı videolar elektron poçtuma daxil olur. Hamısını açıb izləməsəm də, çoxuna nəzər salıram və heyrətlənirəm. Yazıçı təxəyyülü, publisist düşüncəsi və hadisələrin şahidi kimi meyarlarla tənzimlənən bu kadrlarda öz doğma Vətənində qərib yaşayan qələm əhlinin taleyini görürük.

Milli faciələrimizi əks etdirən “Sürgün”, “Kəlbəcər ağrısı”, “Yiyəsizlər”, “Qara canavar” kimi roman və povestlər, “Həsrət”, “Yar yanında günahkaram”, “Ruh”, “Ulartı”, “Qaradonnu” və sair onlarla əsərlərin müəllifi Miraslan Bəkirli zəngin jurnalistika fəaliyyəti və ədəbi irsi ilə Azərbaycan mətbuatı və mədəniyyətinə dəyərli töhfələr verməkdə davam edir. Qərbi Azərbaycan ağrı və acıları onun qələminin əsas mövzusudur. Yəni öz taleyini yazan qələm adamıdır. Vətənində qəriblik taleyi yaşayan yazıçımız.

**Almaz ÜLVİ BİNNATOVA**
**Filologiya elmləri doktoru, professor**
**AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun “Azərbaycan-Türkmənistan-Özbəkistan ədəbi əlaqələr” şöbəsinin müdiri,**
**Özbəkistan Respublikasının “Dostluq” ordeni laureatı**

# 62 ildən sonra ...

## Fransada yeni qurulacaq hökumətə də inam yoxdur

Xarici siyasətdə uğursuzluq. Avropada dövlətin və prezidentin nüfuzunun quyunun dibinə düşməsi. Paytaxtda və əyalətlərdə sosial tələblərlə permanent tətillər, digər qonşu ölkələrə də sirayət edən “sarı jiletlilər” hərəkatı, “peyin inqilabı”. Afrikada, dənizaşırı ərazilərdə kütləvi hal alan etirazlar, müstəmləkə ölkələrində getdikcə daha cəsarətlə səslənən “Rədd ol” şüarları. Demokratiyadan təkhakimiyyətliliyə dönüş. Cari ildə Avropa parlamentinə və Milli Assambleyaya son seçkilərdə acınacaqlı məğlubiyyət...

Siyahı uzundur. Əslində, bu və ya digər uğursuzluqları bir dövlətin və yaxud bir siyasətçinin timsalında təsəvvür etmək çətindir. Bununla belə, reallıq ortadadır. Söhbət tarixi ənənələri olan Fransanın bugünkü acınacaqlı vəziyyətindən gedir. Yerli analitiklər, müxalifət partiyalarının təmsilçiləri isə ölkənin uğursuzluq zolağına düşməsinin məsuliyyətinin Makronun və onun komandasının üzərində olduğu qənaətindən çıxış edirlər. Həqiqətən də, məhz Yelisey Sarayının indiki sahibinin iki prezidentliyi dönəmində Fransa indiki aşağıdan aşağı səviyyəyə enib. Bu gün ölkə həyatının bütün sahələrində durum son dərəcə məyusedicidir...

*Mübariz FEYİZLİ*

### Çıxılmaz görünən hökumət böhranı

Son iki ildə bir-birinin ardınca baş verən hökumət böhranları Fransanın bugünkü acınacaqlı vəziyyəti barədə konkret təsəvvür yaradır. Makron bəhs olunan dövrdə düz üç dəfə yeni hökumət qurmaq məcburiyyətində qalıb. Həmin hökumətlərin mövcud olma müddəti ən yaxşı halda bir il olub. Digər hökumət səkkiz ay duruş gətirib. Sonuncu Mişel Barnye hökuməti isə cəmi üç ay mövcud oldu.

Göründüyü kimi, Makronun qurduğu hökumətlərin mövcud olma müddəti getdikcə azalır. Sonuncu hökumət böhranı daha kritik bir vəziyyətdə baş verdi. İndi Yelisey Sarayı 1962-ci ildə Jorj Pompidu hökumətinin devrilməsindən sonra uzun sürən və çıxılmaz görünən yeni hökumət böhranı ilə üz-üzə qalıb.

Analitiklərin Barnye hökumətini “ölü doğulan uşaq” kimi səciyyələndirmələrində böyük həqiqət payı var. Əslində, Barnyenin lap əvvəldən hökumət başçısı postuna gətirilməsinə hansısa bir əsas yox idi. Makron cari ilin sentyabrında Barnyeni qanunvericiliyi pozmaqla Baş nazir təyin etmişdi. Fransada Konstitusiyaya görə, seçkilərdən sonra hökumət parlamentin yeni tərkibinə uyğun olaraq formalaşdırılmalı idi. Lakin Makron konstitusion tələblərə və demokratik prinsiplərə məhəl qoymayaraq yeni hökumətin formalaşmasını xeyli yubatdı və sentyabr ayında sabiq Avropa komissarı və Fransanın sabiq xarici işlər naziri Barnyeni yeni Baş nazir təyin etdi. Makronun yeni hökuməti şəxsi iradəsi əsasında formalaşdırması siyasi narazılığı artırdı və bu narazılıq parlament etimadsızlığına qədər uzandı.

### Hökumət böhranını şərtləndirən iqtisadi amillər

Barnye hökumətinin süqutunu şərtləndirən digər bir mühüm amil isə ölkədə iqtisadi-maliyyə durumunun kritik dərəcədə ağır olması ilə bağlıdır. Hazırda hansısa bir komandanın Makronun ikiillik prezidentliyi dönəmində üst-üstə qalanan iqtisadi-sosial poblemlərin öhdəsindən gəlməsi mümkünsüz görünür. İş o yerə çatıb ki, parlamentdə Barnye hökumətinə etimadsızlıqla nəticələnən 2025-ci ilin büdcəsinin müzakirələri ətrafında qalmaqallar hələ də səngiməyib. Belə gedişlə parlamentdə gələn ilin büdcəsini qəbul etmək mümkün olmayacaq. Fransa mətbuatında yer alan xəbərlərə görə, solçuların və ifrat sağçıların dəstəklədiyi etimadsızlıq təklifi ilə dekabrın 4-də süqut edən hökumət dövlət borcları səbəbiylə çətin vəziyyətdə olan ölkədə bağlanma riskinə qarşı tədbir görməyə çağırış edib.



Devirilən hökumətin büdcəsinə cavabdeh olan nazir Laurent Saint-Martin TF1 kanalına verdiyi açıqlamada xüsusi qanun layihəsinin hazır olduğunu və bunun bağlanmanın qarşısını alacağını deyib. Təqdim olunması gözlənilən xüsusi qanun layihəsi hökumətin yeni kollegiyasına qədər gündəlik işlərin aparılmasına cavabdeh olan hazırkı hökumətə 2024-cü il büdcəsinə uyğun fəaliyyət göstərmək səlahiyyəti verəcək.

Ancaq xüsusi qanun layihəsinin qəbul edilmədiyi bir ssenaridə Makron bağlanma riskinə qarşı Konstitusiyanın 16-cı maddəsinə istinad edərək, parlamentdə müvafiq müzakirələr aparılmadan büdcə ilə bağlı addımlar ata biləcəyinin də anonsunu edib. Makronun bu mesajı çox doğru olaraq parlamentin əks düşüncəli çoxluğuna hörmətsizlik, demokratiyanın pozulması anlamında qəbul edilir.

### Makron üçün tunelin sonunda işıq görünmür

Barnye hökumətinin devrilməsindən beş gün sonra Makron yeni Baş nazir tapmaq üçün məsləhətləşmələrə başlayıb. O, Yelisey Sarayında ardıcıl olaraq Liot qrupunun müstəqil deputatları, Marin Tondelyerin başçılıq etdiyi ekoloqlar, həmçinin Fabyan Rasselin ətrafındakı kommunistlər ilə görüşüb, hər qrupla bir saatlıq danışıqlar aparıb.

Öz düşərgəsi tərəfindən sıxışdırılan Makron Barnyeni 51 gün gecikmə ilə Baş nazir təyin etmişdi. Bu dəfə isə tez qərar verməlidir. Potensial namizədlər arasında Fransua Bayru, Sebastyan Lekornu və Bernar Kaznövün adları hallanır. Fransua Bayru özünü bu çətin vəziyyətdən çıxmağa “kömək etməyə” hazır göstərir. Lakin onun namizədliyi solçular tərəfindən tamamilə rədd edilir. Müxalifətdə olan Jan-Lüc Melonşon isə sosialistlər Makronla müqavilə bağlayacaqları təqdirdə, “Yeni Xalq Cəbhəsi”nin onlarsız davam edəcəyi ilə hədələyir. O, dövlət başçısına güzəştlər təklif edən sosialistlərin rəhbərinin strategiyasını pisləyir.

Göründüyü kimi, Makron son dərəcə çətin durumdadır. Onun üçün tunelin sonunda işıq görünmür. Yeri gəlmişkən, Makronun postunu itirməsi ehtimalı da kifayət qədər böyükdür. Məlum olduğu kimi, sağçı “Milli Birlik” Partiyasının lideri Marin Le Pen hökumətə qarşı etimadsızlıq səsverməsində dəstək verərək Baş nazir Barnyenin vəzifədən uzaqlaşdırılmasında mühüm rol oynayıb. İndi isə Le Pen diqqətini Makronun impiçment proseduruna yönəldib...

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Ziya LTD” MMC - 0124977696, 0503067744

6 aylıq abunə - 79,20 AZN
12 aylıq abunə - 158,40 AZN





# BMT-nin ali məhkəmə orqanı

## Beynəlxalq Ədalət Məhkəməsinin yaranmasından 104 il ötür...

Dünyada hegemonluğu ələ keçirmək istəyən qüdrətli dövlətlərin iddiaları bitib tükənmək bilmir. Elə buna görə də ötən əsrdə baş verən iki dünya müharibəsi bəşəriyyətə çox böyük itkilər hesabına başa gəldi. Nəticədə beynəlxalq miqyasda sülhü və təhlükəsizliyi qoruyub saxlamaq, beynəlxalq mübahisələrin və münaqişələrin dinc vasitələrlə və ədalətlə nizama salınmasını təmin etmək üçün beynəlxalq bir təşkilatın yaradılmasına böyük zərurət var idi...

### Daimi Beynəlxalq Ədalət Məhkəməsi

Bu gün Daimi Beynəlxalq Ədalət Məhkəməsinin (DBƏM) yaranmasından 104 il ötür. Mübahisələrin sülh yolu ilə həlli üçün nəzərdə tutulmuş ilk beynəlxalq məhkəmə orqanı Millətlər Birliyinin himayəsində 1920-ci ildə yaradılan Daimi Beynəlxalq Ədalət Məhkəməsi idi. Palata Millətlər Birliyi tərəfindən yaradılıb və maliyyələşdirilib. Bununla birlikdə Palata Liqanın bir hissəsi deyildi. Liqaya üzv olan bir dövlət avtomatik olaraq DBƏM nizamnaməsinə tərəf çevrilməmişdi. Digər tərəfdən, bu müqavilələrlə əlaqəli mübahisələrdə PPMP-nin yurisdiksiyasını təmin edən bir neçə yüz müqavilə imzalanmışdı.

### Beynəlxalq Ədalət Məhkəməsinin yaradılması

1922-1940-cı illər arasında DBƏM 29 dövlət mübahisəsinə qərar vermiş və demək olar ki, hamısı həyata keçirilmiş 27 məsləhət rəyi vermişdi. Palata beynəlxalq hüququn inkişafına da böyük töhfə verib. Fəaliyyəti İkinci Dünya müharibəsi ilə kəsildi və daha sonra 1946-cı ildə Millətlər Birliyi ilə birlikdə Palata ləğv edildi. Palatanın yerinə Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Ədalət Məhkəməsi gəlir.

Beynəlxalq Ədalət Məhkəməsi Birləşmiş Millətlər Təşkilatının ali məhkəmə orqanıdır. Onun qərargahı Niderlandın Haaqa şəhərindəki Sülh Sarayındadır. Məhkəmənin iş prinsipi geniş məhkəmə fəaliyyəti ilə xarakterizə olunur. Onun əsas vəzifələri dövlətlərə təqdim edilmiş hüquqi mübahisələrin həlli və lazımi qaydada səlahiyyətli beynəlxalq orqanlar və qurumlar tərəfindən ona təqdim edilmiş hüquqi məsələlər üzrə məsləhətçi rəy verməkdir. Beynəlxalq Məhkəmə tərəfindən qəbul edilən qərarların sayı nisbətən az idi, lakin 1980-ci ildən başlayaraq, xüsusən də inkişaf etməkdə olan ölkələr arasında Məhkəmədən istifadə etmək istəyi açıq şəkildə ortaya çıxmışdı.

Beynəlxalq Məhkəmə vətəndaşlıqlarından asılı olmayaraq yüksək mənəvi keyfiyyətlərə malik olan şəxslərdən seçilmiş və müstəqil hakimlər kollegiyasını təşkil edən on beş nəfərdən ibarətdir. Beynəlxalq Məhkəmənin hakimləri əsasən BMT-nin üzv dövlətlər arasından seçilir. BMT-in Baş Assambleyası və BMT-nin Təhlükəsizlik Şurası 15 hakimi ayrı-ayrılıqda müstəqil şəkildə seçir. Hakimliyə namizədlər həm Baş Assambleyada, həm də Təhlükəsizlik şurasında birgə topladıqları səs sayına görə seçilirlər. Əgər bir dövlətin bir neçə namizədi çox səs toplayıbsa, onların ən yaşlısı hakim seçilir. Hər bir hakim ayrı-ayrı ölkənin vətəndaşı olmalıdır, yəni bir dövləti eyni vaxtda iki hakim təmsil edə bilməz. Seçim zamanı namizədlərin təkcə göstərilən tələblərə uyğunluğu deyil, həm də onların hansı hüquq sistemini təmsil etməsi də nəzərə alınır.

Seçilmiş hakimlər öz hüquqlarından 9 il müddətində istifadə edə bilərlər. Yəni hakimlər 9 illiyinə seçilirlər. Hakimlərin 9 illik seçilməyinə baxmayaraq, seçkilər hər üç ildən bir keçirilir və hər seçkidə 5 köhnə hakimi yeniləri əvəz edir. Statut hakimlərə yenidən seçilmək hüququ da verir. Seçilən hər bir hakim diplomatik toxunulmazlığa malik olur və elmi, pedaqoji və yaradıcılıq fəaliyyətindən başqa heç bir işlə məşğul ola bilməzlər.

**Seçilmiş hakimlər öz hüquqlarından 9 il müddətində istifadə edə bilərlər. Yəni hakimlər 9 illiyinə seçilirlər. Hakimlərin 9 illik seçilməyinə baxmayaraq, seçkilər hər üç ildən bir keçirilir və hər seçkidə 5 köhnə hakimi yeniləri əvəz edir. Statut hakimlərə yenidən seçilmək hüququ da verir. Seçilən hər bir hakim diplomatik toxunulmazlığa malik olur və elmi, pedaqoji və yaradıcılıq fəaliyyətindən başqa heç bir işlə məşğul ola bilməzlər**

### Ölkəmizin lehinə qərarlar...

Qeyd edək ki, son illər Beynəlxalq Ədalət Məhkəməsi Ermənistanın ölkəmizə qarşı olan əsassız iddialarını rədd edib. Bəlli olduğu kimi, ermənilər və havadarlarından başqa heç bir təşkilat, yaxud dövlət Qarabağda yaşayan ermənilər üçün hansısa bir problem yaşandığını ortaya qoya bilməyib. Rəsmi Bakı bununla bağlı dəfələrlə müxtəlif kadrlar, o cümlədən video görüntülər təqdim edib.

Xatırladaq ki, 7 dekabr 2021-ci il tarixində Beynəlxalq Ədalət Məhkəməsi Ermənistanın, o cümlədən Ermənistan ərazisində fəaliyyət göstərən və Azərbaycanlıları hədəf alan fərdlər və təşkilatlar tərəfindən irqi nifrətin təşviq etməsini qadağan edən müvəqqəti tədbirlərə dair Azərbaycanın vəsatətini təmin edib.

Ötən il aprelin 21-də isə Azərbaycan tərəfi “İrqi Ayrı-seçkiliyin Bütün Formalarının Ləğv edilməsi haqqında”“ Konvensiya çərçivəsində Ermənistan tərəfindən Azərbaycana qarşı qaldırılmış əsas iddiaya qarşı ilkin etirazlarını Beynəlxalq Ədalət Məhkəməsinə rəsmi təqdim edib. Azərbaycanın qeyd edilən ilkin etirazları ilə əlaqədar Beynəlxalq Ədalət Məhkəməsi Ermənistanın əsas iddia sənədinə baxılmanı dayandırıb.

### 10 iddiadan 7-si rədd edilib

Beynəlxalq Ədalət Məhkəməsi, həmçinin 2023-cü il noyabrın 17-də Ermənistanın Azərbaycana qarşı 10 iddiasından 7-sini rədd edib. Məhkəmə öz qərarında Azərbaycanın Qarabağ üzərində suverenliyini və ərazi bütövlüyünü təsdiqləyib, Azərbaycanın hərbi və hüquq-mühafizə orqanlarının Qarabağ bölgəsindən çıxarılması ilə bağlı əsassız və gülünc tələbini rədd edib. Həmçinin qərara əsasən, Azərbaycan hökumətinin Qarabağın erməni sakinləri ilə bağlı artıq bəyan olunmuş siyasəti qəbul edilib. Bu, milli və ya etnik mənşəyindən asılı olmayaraq bütün sakinlərin təhlükəsizliyini və mühafizəsini təmin etmək barədə Azərbaycanın öhdəliyini əhatə edir.

*Yeganə BAYRAMOVA*

## İdman




# Azercell-in antikorrupsiya siyasəti beynəlxalq ekspertlər tərəfindən dəyərləndirildi

## Ölkənin lider mobil operatoru ISO 37001:2016 “Antikorrupsiya idarəetmə sistemi” standartları üzrə sertifikatını uğurla yeniləyib

Azercell-in daxili siyasət və prosedurlarının ISO 37001:2016 standartına uyğunluğu, şirkətin fəaliyyətinin şəffaflıq prinsiplərinə əsaslandığı beynəlxalq ekspertlər tərəfindən bir daha təsdiqlənib. Sertifikatlaşma auditini 16 oktyabr 2024-cü il tarixində ABŞ-ın ən böyük akkreditasiya qurumu olan ANAB-ın (ANSI National Accreditation Board) akkreditə etdiyi Türkiyənin Denetik Belgelendirme şirkəti həyata keçirib. Auditin nəticələri Azercell-in antikorrupsiya proqramının bütün tələblərinə cavab verdiyini bir daha sübut edib.

ISO 37001 korrupsiyaya qarşı mübarizə sahəsində qlobal səviyyədə tanınan yeganə standartdır və 2016-cı ildə Beynəlxalq Standartlaşdırma Təşkilatı (ISO) tərəfindən hazırlanmışdır. Sertifikat Azercell-in antikorrupsiya fəaliyyətinə və şəffaflığın təmin edilməsinə yetirdiyi diqqəti, korrupsiyaya qarşı mübarizədə yerli qanunlara, beynəlxalq standartlara, habelə qabaqcıl təcrübələrə sadiqliyini təsdiq edir. Eyni zamanda, korrupsiyaya qarşı sıfır tolerantlıq prinsipi ilə fəaliyyət göstərən Azercell, tərəfdaşları ilə şəffaf və etibarlı işgüzar münasibətlər qurmaqla biznes etikası mədəniyyətinin inkişafına da töhfəsini verir.

Qeyd edək ki, 2020-ci ildən etibarən ISO 37001 standartına uyğunluq sertifikatına sahib olan Azercell, həmçinin yerli telekommunikasiya bazarında bu sertifikatlaşmadan uğurla keçən ilk şirkətdir.

# Azərbaycanın 2025-ci il üçün FIFA referiləri bəlli olub

Azərbaycanı 2025-ci ildə beynəlxalq oyunlarda təmsil edəcək FIFA referilərinin adları bəlli olub.

AZƏRTAC-ın əldə etdiyi məlumata görə, beynəlxalq dərəcəli hakimlərimizin siyahısında dəyişiklik edilməyib. Bu il olduğu kimi, siyahıda 17 ədalət təmsilçisi yer alıb.

Referilər: Əliyar Ağayev, Elçin Məsiyev, Kamal Umudlu, Fəridə Lütfəliyeva

Referi köməkçiləri: Zeynal Zeynalov, Akif Əmirəli, Elşad Abdullayev, Pərvin Talıbov, Namiq Hüseynov, Vüsal Məmmədov, Gülnurə Əkbərzadə, Sevda Nurıyeva

VAR hakimlər: Əliyar Ağayev, Elçin Məsiyev

Futzal: Hikmət Qafarlı, Knyaz Əmiraslanov, Əli Cəbrayılov

Çimərlik futbolu: İnqilab Məmmədov, Nail Nağıyev.

# Beynəlxalq Polo və Çövkən federasiyaları arasında Dostluq Memorandumunun hazırlanması müzakirə olunub

Argentinanın paytaxtı Buenos-Ayres şəhərində Beynəlxalq Polo Federasiyasının (FIP) Baş Assambleyası keçirilib.

Azərbaycan Respublikası Atçılıq Federasiyasından AZƏRTAC-a bildiriblər ki, Assambleyada FIP-ə üzv ölkələrin nümayəndələri ilə yanaşı, Beynəlxalq Çövkən Federasiyasının (ICF) baş katibi Matsey Miçel Olbriç xüsusi qonaq qismində iştirak edib.



ICF prezidenti Bəhruz Nəbiyev tədbirə virtual şəkildə qatılaraq, çövkən və polonun oxşarlığını vurğulayıb, bu iki yaxın idman növünü dünyada tanıtmaq üçün birgə strategiyanın hazırlanmasının vacibliyini bildirib.

Tədbir çərçivəsində M.Olbriç FIP prezidenti Pyer Dilye və qurumun baş direktoru Aleyandro Teylor ilə görüşərək, iki federasiya arasında Dostluq Memorandumunun hazırlanması üzrə müzakirələr aparıb. Bu təşəbbüsün hər iki təşkilat arasında artan əməkdaşlığın təzahürü olduğu qeyd edilib.

Xüsusilə çövkənin beynəlxalq səhnədə artan nüfuzu vurğulanaraq, Bakı şəhərində bu növ üzrə dünya çempionatının təşkil edilməsi ideyası böyük maraqla qarşılanıb.

Bu Assambleya polo və çövkən icmaları arasında əlaqələrin möhkəmləndirilməsi, qarşılıqlı inkişafın təşviqi və hər iki idman növünün dünyada tanınması istiqamətində mühüm addım kimi qiymətləndirilir.

# Bakıda çimərlik voleybolu üzrə “Qış kuboku” keçiriləcək

Bakıda çimərlik voleybolu üzrə “Qış kuboku” keçiriləcək.

“Report” xəbər verir ki, yarış dekabrın 22-də Azərbaycan Voleybol Federasiyasının idman zalında qarışıq cütlər arasında təşkil olunacaq.

Reqlamentə əsasən, komandalar bir qadın və bir kişi voleybolçudan ibarət olmalıdır.

Qeyd edək ki, çimərlik voleybolu qaydaları üzrə keçiriləcək yarışda iştirak üçün 16 yaşdan yuxarı qız və oğlanlar müraciət ünvanlaya bilərlər.



Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4880
Sifariş: 2875
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova